

**Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**
*Ümummilli Lider HEYDƏR ƏLİYEV*

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti 31 iyul 2025-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

BDU ilə Çinin Hebei Normal Universiteti arasında anlaşma memorandumu imzalanıb ➔Səh.2

BDU Elmi Şurasının 2024/2025-ci tədris ilində son iclası ➔Səh.2

BDU İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi ilə əməkdaşlıq haqqında anlaşma memorandumu imzalayıb ➔Səh.3

BDU ilə Özbəkistanın Jurnalistika və Kütləvi Kommunikasiya Universitetinin rektorları arasında görüş ➔Səh.4

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin 70-dən çox məzunu dünyanın nüfuzlu universitetlərinə qəbul olub ➔Səh.5

BDU-nun 14 təhsil proqramı beynəlxalq akkreditasiya prosesindən keçiriləcək ➔Səh.5



BDU rektoru T3 Fondunun Azərbaycan təmsilçisi və "Bilim Bakı"nın direktoru ilə görüşüb ➔Səh.2



BDU-da Türkiyənin Çağ Universitetinin rektoru Murat Koçla görüş ➔Səh.2



Çinin Lanzhou Maliyyə və İqtisad Universitetinin nümayəndə heyəti BDU-da ➔Səh.3



BDU və İƏT Gənclər Forumu Avrasiya Regional Mərkəzi arasında anlaşma memorandumu imzalanıb ➔Səh.3



Bu il BDU-nun SABAH qruplarını 471 məzun bitirir ➔Səh.5




## 150 yaşlı Azərbaycan milli mətbuatı

***22 iyul 150 yaşını qeyd edən milli mətbuatımız zəngin və şərəfli inkişaf yolu keçib. "Əkinçi" qəzetinin ilk nömrəsinin işıq üzü gördüyü gün – 22 iyul ölkəmizdə Milli Mətbuat Günü kimi qeyd olunur.***

Azərbaycan milli mətbuatının yaranışı maarifçilik hərəkatının banilərindən biri, təbiətşünas-alim Həsən bəy Zərdabinin adı ilə bağlıdır. 1875-ci ildə bütün Qafqazda böyük əks-səda doğuran "Əkinçi" qəzetini ərsəyə gətirən Həsən bəy onun həm naşiri, həm redaktoru, həm də korrektoru idi. Qəzetin işıq üzü görməsində Mirzə Fətəli Axundzadə, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və başqa ziyalılarımızın böyük xidmətləri olub.

Zərdabinin yaratdığı "Əkinçi" qəzeti ilə başlanan bu yol sonrakı dövrlərdə vətənsevər ziyalılarımızın ərsəyə gətirdiyi digər mətbu orqanlarımız tərəfindən davam etdiriləərək xalqımızın milli oyanışında, XX əsrin əvvəllərində istiqlal arzularının gerçəkləşməsində misilsiz rol oynayıb.

Milli mətbuatımız bütün tarixi inkişafı boyu "Əkinçi" ənənələrinə sadiq qalıb, "Əkinçi məktəbi"nin davamçıları daim cəmiyyətin güzgüsü rolunu oynayıblar.

Azərbaycanda qəzetçilik ənənəsinin əsasını qoyan "Əkinçi"nin cəmi 56 sayı işıq üzü görsə də (1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabrınadək), o, milli mətbuatımızın təşəkkül tapmasında və inkişafında əvəzsiz rol oynadı.

Əsasən maarifçilik missiyasını üzərinə götürmüş "Əkinçi" qısa müddətdə həm ziyalı təbəqə, həm də sadə insanlar arasında populyarlıq qazanmışdı. Qəzet insanların maariflənməsinə, ictimai-siyasi proseslərə daha yaxından bələd olmasına vəsilə oldu. Həmçinin o dövrün görkəmli maarifçiləri "Əkinçi" qəzetinin səhifələrində öz maarifçi və demokratik ideyalarını təbliğ etməklə ictimai, siyasi və bədii fikrin inkişafına böyük təsir göstərirdilər. Bu, çar Rusiyasına xoş gəlmədiyi üçün çox keçmədən "Əkinçi"nin nəşri dayandırıldı.

Ümummilli Lider Heydər Əliyev bütün sahələrdə olduğu kimi, Azərbaycan milli mətbuatının inkişafında da misilsiz xidmətlər göstərib. Onun 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı mətbuatımızın tarixində də yeni mərhələ açdı. 1998-ci ildə senzuranın ləğv edilməsi ilə ölkəmizdə söz və mətbuat azadlığının əsası qoyuldu və bu, mətbuatın inkişafına ciddi təkan verdi.

Ulu Öndərin mətbuata və jurnalistlərə göstərdiyi diqqət və qayğı bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə söz və mətbuat azadlığı tam bərqərar olub. Təsadüfi deyil ki, hazırda respublikada çoxsaylı qəzet və jurnal nəşr olunur, informasiya agentliklərinin, televiziya və radioların geniş şəbəkəsi fəaliyyət göstərir, internet qəzetçilik inkişaf edir. Müasir dövrdə informasiya texnologiyalarının inkişafı və davamlı islahatlar nəticəsində Azərbaycan mətbuatı qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevrilib.

"Cəmiyyətin güzgüsü" adlandırılan mətbuat dinamik inkişaf edən sahələrdən biri kimi daim yenilənməyə açıqdır. Sosial şəbəkələrin meydana çıxması, media məkanında sürətli qloballaşma prosesi və milli mətbuatımızın inkişafı mövcud qanunvericilik bazasının təkmilləşdirilməsini zərurətə çevirmişdi.

2021-ci ildə Azərbaycanda "Media haqqında" Qanun qəbul edildi. 9 fəsil, 78 maddədən ibarət olan sənəd ölkədə media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir.

*(ardı 7-ci səhifədə)*

BDU ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Azərbaycan milli mətbuatının 150 illik yubileyinə önəmli töhfəsi ➔Səh.4

# BDU rektoru T3 Fondunun Azərbaycan təmsilçisi və "Bilim Bakı"nın direktoru ilə görüşüb

***İyulun 4-də BDU-nun rektoru Elçin Babayev Türkiyə Texnologiya Komandası Fondunun (T3 Fondu) Azərbaycan təmsilçisi və "Bilim Bakı"nın direktoru Ahmet Köse ilə görüşüb. Görüşdə təhsil, elm və texnologiya sahələrində əməkdaşlıq imkanları, o cümlədən müxtəlif layihələrin dəstəklənməsi müzakirə olunub.***

Rektor Elçin Babayev BDU-nun innovasiya yönümlü fəaliyyəti, tələbələrin qazandığı uğurlar və rəqəmsal bacarıqların artırılması istiqamətində görülən işlər barədə məlumat verib. Ahmet Köse isə T3 Fondunun Azərbaycandakı təşəbbüsləri və gələcək planları haqqında danışıb.



# BDU-da Türkiyənin Çağ Universitetinin rektoru Murat Koçla görüş

***İyulun 9-da BDU-nun rektoru Elçin Babayev Türkiyə Respublikasının Çağ Universitetinin rektoru Murat Koçla görüşüb.***

Rektor Elçin Babayev qonağa BDU-nun tədris, elmi fəaliyyəti, beynəlxalq əlaqələri barədə məlumat verib. BDU-nun türkdilli ölkələrlə, o cümlədən qardaş Türkiyənin ən tanınmış universitetləri ilə sıx əməkdaşlıq etdiyini bildirib. O, Çağ Universiteti ilə hüquq, beynəlxalq münasibətlər, filologiya, psixologiya istiqamətləri üzrə geniş əməkdaşlıq imkanlarının olduğunu diqqətə çatdırıb. Rektor qeyd edib ki, hər iki universitet adıçəkilən sahələr üzrə elmi tədqiqatlar apara, ikili diplom proqramları imzalaya, ortaq layihələr, tədbirlər icra edə bilər.

Çağ Universitetinin rektoru Murat Koç Türk Dövlətləri Təşkilatına üzv ölkələrin, xüsusilə Azərbaycanın ali təhsil müəssisələri ilə əməkdaşlıqda maraqlı olduqlarını vurğulayıb. Qeyd edib ki, Azərbaycanın ali təhsilinin əsas açarı olan BDU ilə əməkdaşlıq bu baxımdan çox əhəmiyyətlidir.

Görüş zamanı iki universitet arasında təhsil, elm və tədqiqat sahələrində əməkdaşlıq imkanları müzakirə olunub. Eyni zamanda tələbə və müəllim mübadiləsi, birgə layihələrin həyata keçirilməsi, beynəlxalq proqramlarda iştirak və ortaq elmi tədbirlərin təşkili ilə bağlı fikir mübadiləsi aparılıb. Sonda BDU və Çağ Universiteti arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.



# BDU Elmi Şurasının 2024/2025-ci tədris ilində son iclası

***Bakı Dövlət Universitetinin Elmi Şurasının 2024/2025-ci tədris ilində son iclası keçirilib.***

Rektor Elçin Babayev gündəlikdə olan məsələləri iclas iştirakçılarının diqqətinə çatdırıb.

Tədris və təlim texnologiyaları üzrə prorektor Fərda İmanov iclasda 2024/2025-ci tədris ilinin yaz semestrinin imtahan sessiyası və Yekun Dövlət Attestasiyasının nəticələri barədə təqdimatla çıxış edib. Bildirilib ki, sessiyanın gedişinə operativ nəzarət, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı təmin etmək məqsədilə İmtahan Qərargahı və Apelyasiya Komissiyası yaradılıb. İmtahanlarda müvəffəqiyyət və keyfiyyət göstəriciləri əvvəlki ilə nisbətən artıb.

Apelyasiya Komissiyasının sədri Elşad Qurbanov sessiya müddətində imtahanların gedişi ilə əlaqədar ərizə, təklif, Elm və Təhsil Nazirliyinin "Qaynar xətt"i vasitəsilə daxil olmuş şikayətlərin araşdırılması barədə məlumat, Antiplagiat Komissiyasının sədri Kəmalə Alışeva 2024/2025-ci tədris ili üzrə hesabat verib.

İclasda BDU və Amerikanın Biznes İnnovasiyası və Davamlılıq Universiteti (UBIS) arasında "Beynəlxalq əlaqələr" ixtisaslaşması üzrə magistratura səviyyəsində ikili diplom proqramının II buraxılış məzunu Reyhan Məhərrəmovaya, BDU ilə İsrailin Holon Texnologiya İnstitutu arasında "Kompüter elmləri" ixtisası üzrə bakalavriat səviyyəsində ikili diplom proqramının III buraxılış məzunları İsmayıl Zeynalov, Şəfa Haqverdiyeva və Lalə Əkbərovaya diplomlar təqdim olunub.

Daha sonra cari məsələlərə baxılıb.



# BDU ilə Çinin Hebei Normal Universiteti arasında anlaşma memorandumu imzalanıb

***İyulun 8-də BDU və Çin Xalq Respublikasının Hebei Normal Universiteti arasında anlaşma memorandumu imzalanıb.***

Sənədi BDU-nun rektoru Elçin Babayev və Hebei Normal Universitetinin rektoru Li Guijun imzalayıb.

Memorandumda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramlar, tədris planları və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

Əsası 1902-ci ildə qoyulmuş Hebei Normal Universiteti Çin Xalq Respublikasının nüfuzlu universitetlərindən biridir.

# BDU-da T3 Fondunun birgə əməkdaşlığı ilə "TEKNOFEST klubu" yaradılır

*T3 Fondu ilə əməkdaşlıq çərçivəsində tələbələrin texnologiya, mühəndislik və elmi araşdırmalara olan marağının artırılması hədəflənir.*

***BDU və Türkiyə Texnologiya Komandası Fondunun (T3 Fondu) birgə əməkdaşlığı çərçivəsində BDU-da "TEKNOFEST klubu" yaradılır.***

Bununla bağlı BDU-nun Elmi Şurası qərar qəbul edib.

BDU rektoru Elçin Babayev Universitet komandalarının son illərdə dünyanın ən böyük kosmos, aviasiya və texnologiya festivalı olan TEKNOFEST-də ciddi uğurlara imza atdığını bildirib. O qeyd edib ki, T3 Fondu ilə əməkdaşlığın dərinləşdirilməsi və "TEKNOFEST klubu"nun yaradılması bu yarışlara hazırlaşacaq BDU tələbələrinə dəstəyin göstərilməsi, tələbələrdə texnologiyaya marağın artırılması, rəqəmsal bacarıqların inkişafı, innovasiya və startap mədəniyyətinin təşviqi, T3 və TEKNOFEST ekosisteminə inteqrasiya, Türkiyədə müvafiq qurumlarla elm və texnologiya sahəsində əməkdaşlığın gücləndirilməsi, BDU-nun innovasiya yönümlü strategiyasının dəstəklənməsi məqsədini daşıyır.

T3 Fondu ilə əməkdaşlıq çərçivəsində tələbələrin texnologiya, mühəndislik və elmi araşdırmalara olan marağının artırılması hədəflənir. Klub tələbələrin rəqəmsal texnologiyalar, proqramlaşdırma, süni intellekt, robototexnika və digər sahələrdə bilik və bacarıqlarını təkmilləşdirmək üçün təlim və layihələr təşkil edəcək. Tələbələr T3 Fondunun təşəbbüslərində, o cümlədən TEKNOFEST və digər beynəlxalq müsabiqələrdə iştirak imkanı əldə edəcəklər. Klub vasitəsilə BDU və T3 Fondu arasında davamlı əməkdaşlıq qurularaq, birgə layihələrin, mübadilə proqramlarının və elmi tədbirlərin həyata keçirilməsi təşviq olunacaq. "TEKNOFEST klubu" Universitetin strateji hədəfləri ilə uzlaşaraq, gənclərin gələcəyin tələblərinə uyğun hazırlanmasına xidmət edəcək.

T3 Fondunun Azərbaycan təmsilçisi və "Bilim Bakı"nın direktoru Ahmet Köse çıxışında Fondun fəaliyyət istiqamətləri barədə məlumat verib, BDU ilə əməkdaşlığın ölkəmizdə elm və texnologiyanın daha da inkişafına təkan verəcəyinə əminliyini bildirib, yeni yaranan klubun fəaliyyətinə uğurlar arzulayıb.

# Çinin Lanzhou Maliyyə və İqtisad Universitetinin nümayəndə heyəti BDU-da

***İyulun 11-də Çin Xalq Respublikasının Lanzhou Maliyyə və İqtisad Universitetinin prorektoru Huang Hengjunun rəhbərlik etdiyi nümayəndə heyəti Bakı Dövlət Universitetində olub.***

Rektor Elçin Babayev qonaqlara Universitetin tarixi, beynəlxalq əlaqələri, xüsusilə də Çin ali təhsil və elmi-tədqiqat qurumları ilə əməkdaşlığı haqqında məlumat verib. O, iki ölkə arasında dostluq münasibətlərinin elm və təhsil sahəsində də uğurla inkişaf etdiyini vurğulayıb, BDU-da fəaliyyət göstərən Konfutsi İnstitutunun bu əməkdaşlıqda xüsusi rol oynadığını qeyd edib. Rektor Elçin Babayev iki ölkə arasında münasibətlərin son illər yüksələn xətlə inkişaf etdiyini bildirib. Xüsusilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çinə dövlət səfəri, iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulmasından sonra bu münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Rektor iki ölkə arasında dostluq münasibətlərinin möhkəmlənməsində mədəni-humanitar, təhsil sahəsində həyata keçirilən layihələrin xüsusi rolu olduğunu vurğulayıb.



Lanzhou Maliyyə və İqtisad Universitetinin prorektoru Huang Hengju Azərbaycanın ən böyük ali təhsil müəssisəsi olan BDU ilə əlaqələrin qurulmasına maraqlı olduqlarını, bu əməkdaşlığın ölkələrimizin elm-təhsil sahəsindəki inkişafına fayda verəcəyini bildirib.

Görüşdə BDU və Lanzhou Maliyyə və İqtisadiyyat Universiteti arasında elm, təhsil, tədqiqat sahəsində əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb.

# BDU və İƏT Gənclər Forumu Avrasiya Regional Mərkəzi arasında anlaşma memorandumu imzalanıb

***İyulun 11-də BDU və İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu (İƏTGF) Avrasiya Regional Mərkəzi arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.***

Memorandumu BDU rektoru Elçin Babayev və İƏTGF Avrasiya Regional Mərkəzinin İdarə Heyətinin sədri Elçin Əsgərov imzalayıblar.

Mərasimdə Azərbaycanda həyata keçirilən gənclər və təhsil siyasəti, milli-mənəvi dəyərlərin qorunması, BDU-nun bu prosesdə rolu barədə məlumat verilib, İƏT, eləcə də bu quruma bağlı olan İƏTGF və onun Bakıda beynəlxalq təşkilat kimi diplomatik statusla fəaliyyət göstərən Avrasiya Regional Mərkəzinin gənclərin inkişafı ilə bağlı həyata keçidiyi layihələrdən bəhs edilib. Müzakirələrdə İƏTGF Avrasiya Regional Mərkəzinin təşəbbüsü ilə 2011-ci ildən etibarən hər il keçirilən İƏT Modeli və Debat Çempionatları layihələrinin əhəmiyyətindən, onların gənclərdə liderlik qabiliyyətlərinin gücləndirilməsində oynadığı roldan danışılıb. Mərkəzin İdarə Heyətinin sədri Elçin Əsgərov rektor Elçin Babayevə BDU tərəfindən adıçəkilən layihələrə daim göstərilən dəstəyə görə təşəkkürünü bildirərək, Universitet tələbələrinin müxtəlif ölkələrdə keçirilən İƏT Modeli beynəxalq sammitlərində xüsusi istedad və bacarıqları ilə fərqləndiklərini, yarışlarda finalçılar sırasında olduqlarını nəzərə çatdırıb.



Bununla yanaşı, BDU ilə İƏTGF Avrasiya Regional Mərkəzi arasında yerli, regional və beynəlxalq səviyyədə həyata keçirilməsi mümkün olan layihə və təşəbbüslər müzakirə edilib, memorandum çərçivəsində reallaşdırılması nəzərdə tutulan fəaliyyətlərlə bağlı fikir mübadiləsi aparılıb.

# BDU rektoru abituriyentlərlə görüşüb




***İyulun 31-də BDU-da "Açıq qapı" günləri çərçivəsində BDU-nun rektoru Elçin Babayevin abituriyentlərlə görüşü keçirilib.***

Rektor bu il sentyabrın 1-də 106 yaşını qeyd edəcək BDU-nun hər daşının tarix olduğunu deyib. O bildirib ki, hər insan uğur hekayəsini özü yazır. Düzgün universitet seçimi uğur qazanmaq üçün əsas mərhələlərdən biridir: "BDU hər zaman uğurlu məzunları ilə fəxr edib. Universitetimizin ən böyük məzunu xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir. BDU məzunları içərisində dövlət və hökumət nümayəndələri, Milli Məclisin üzvləri var. İndiyədək BDU ölkəmiz üçün 200 mindən artıq yüksəkixtisaslı mütəxəssis yetişdirib. Bu gün Bakı Dövlət Universiteti beynəlxalq reytinq göstəriciləri ilə yalnız ölkəmizdə deyil, Cənubi Qafqazda birincidir. Bununla bərabər, BDU Azərbaycanda ali təhsil müəssisələrinin flaqmanı kimi bir çox universitetin bazası rolunu oynayıb".

1919-cu ildə iki fakültə - Tarix-filologiya və Tibb fakültələri ilə fəaliyyətə başlayan Universitetin böyük bir inkişaf yolu qət etdiyini bildirən rektor diqqətə çatdırıb ki, hazırda BDU-da 8-i humanitar, 8-i təbiət yönümlü olmaqla 16 fakültə var. Hazırda BDU-da müasir dövrün və əmək bazarının tələblərinə uyğun yeni ixtisas və ixtisaslaşmalar yaradılır, elmi tədqiqatlar aparılır.

Rektor abituriyentlərə uğurlar arzulayıb, onları böyük BDU ailəsinin üzvü olmağa çağırıb.

Sonda rektor Elçin Babayev abituriyent və valideynlərin suallarını cavablandırıb.

# BDU İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi ilə əməkdaşlıq haqqında anlaşma memorandumu imzalayıb

***İyulun 15-də BDU ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. Memorandumu BDU rektoru Elçin Babayev və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin İcraçı direktoru Vüsal Qasımlı imzalayıb.***



BDU ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi təhsil, elmi-tədqiqat, innovasiya, insan kapitalının inkişafı, strateji kommunikasiya, davamlı inkişaf sahələrində əməkdaşlıq edəcək, çoxsaylı layihələr həyata keçirəcək.

Memorandum çərçivəsində milli iqtisadiyyatın müxtəlif istiqamətləri üzrə ortaq tədqiqatlar aparılacaq, Universitetin elmi potensialı Mərkəz tərəfindən aparılan islahatların təhlilində istifadə olunacaq. Universitetin tələbə və tədqiqatçıları üçün Mərkəzdə təcrübə proqramları, mentorluq, seminar və təlim proqramları təşkil ediləcək. Məlumat və resurs mübadiləsi çərçivəsində açıq məlumat bazalarının, analitik hesabatların və iqtisadi təhlillərin paylaşılması, strateji sənədlər və dövlət proqramlarının elmi əsaslandırılması məqsədilə tövsiyələrin hazırlanması, davamlı inkişaf, yaşıl iqtisadiyyat və sosial rifah mövzularında ekspert müzakirələri və dəyirmi masaların təşkili, rəqəmsal iqtisadiyyat sahəsində ortaq təşəbbüslər və pilot layihələrin, startapların dəstəklənməsi də əməkdaşlıq ediləcək sahələr sırasındadır.

Bununla yanaşı, tərəflər strateji kommunikasiya və ictimai rəyin öyrənilməsi üzrə də sıx əməkdaşlıq edəcəklər. Bu çərçivədə iqtisadi islahatların ictimai təsirlərinin öyrənilməsi üzrə sorğular və sosial tədqiqatların keçirilməsi, birgə məlumatlandırma kampaniyalarının təşkili nəzərdə tutulur.

# BDU ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Azərbaycan milli mətbuatının 150 illik yubileyinə önəmli töhfəsi





***İyulun 15-də İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) Bakı Dövlət Universiteti (BDU) ilə birgə Azərbaycan milli mətbuatının 150 illik yubileyi çərçivəsində hazırladığı "İctimaiyyətlə əlaqələrin əsasları" adlı dərs vəsaitinin təqdimatı keçirilib.***

İİTKM-in İcraçı direktoru, iqtisad elmləri doktoru, professor Vüsal Qasımlının elmi redaktorluğu ilə ərsəyə gəlmiş dərs vəsaitinin müəllifləri Vüqar Ziferoğlu, Aynur Nəsirova, Xatirə Hüseynova, Pərvanə İbrahimova, Vəfa İsgəndərova, Afət Yaqubova, Vəli Əlibəyov, Yedgar Cəfərov, Zənurə Talıbova, Natiq Pənahlıdır.

Təqdimat mərasimində çıxış edən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin İcraçı direktoru Vüsal Qasımlı kitabın Azərbaycan milli mətbuatının 150 illik yubileyində önəmli töhfə, tələbələr üçün mühüm dərs vəsaiti olmaqla yanaşı, dövlət və özəl qurumların ictimaiyyətlə əlaqələr sahəsində çalışan mütəxəssisləri üçün faydalı mənbə olacağını bildirib. Kitab ictimaiyyətlə əlaqələr sahəsində strategiyanı, prioritetləri, qarşıda dayanan çağırışları tam əhatə edir.

BDU rektoru Elçin Babayev milli mətbuatın 150 illik yubileyi ərəfəsində belə bir kitabın ərsəyə gəlməsinin mühüm hadisə olduğunu qeyd edib. O bildirib ki, BDU ölkədə jurnalist kadrlar hazırlayan əsas mərkəzdir. Son illər Jurnalistika fakültəsinin fəaliyyəti aparılan islahatlar nəticəsində müasir texnologiyalara, yeni medianın tələblərinə uyğunlaşdırılıb. Bu tədris ilindən isə Jurnalistika fakültəsində magistratura səviyyəsində "İctimaiyyətlə əlaqələr" adlı yeni ixtisaslaşma açılıb. Yeni dərs vəsaiti tədris prosesinin vacib elementi olmaqla yanaşı, informasiya cəmiyyətində uğur qazanmaq istəyən hər bir fərd və təşkilat üçün strateji bələdçi kimi çıxış edəcək. Kitabın əhəmiyyətli üstünlüklərindən biri də ictimaiyyətlə əlaqələr sahəsinin Azərbaycan reallığı ilə əlaqələndirilməsidir.

Milli Məclisin deputatları – Bakı Slavyan Universitetinin Jurnalistika kafedrasının müdiri, siyasi elmlər doktoru, professor Vüqar Rəhimzadə, siyasi elmlər doktoru Hikmət Məmmədov, BDU-nun Jurnalistika fakültəsinin dekanı, filologiya elmləri doktoru Vüqar Əliyev, Multimedia və elektron kommunikasiya kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Qulu Məhərrəmli, Azərbaycan Beynəlxalq Bankının Marketinq depatamentinin direktor müavini, filologiya üzrə fəlsəfə doktoru Yedgar Cəfərov kitabın ictimaiyyətlə əlaqələrin nəzəri və praktiki əsaslarını əhatə edən fundamental əsər olduğunu vurğulayıblar.

Sonda "İctimaiyyətlə əlaqələrin əsasları" dərs vəsaiti ilə bağlı videoçarx nümayiş olunub.

# BDU-da şəhid övladları olan abituriyentlər üçün infotur keçirilib



***İyulun 17-də Bakı Dövlət Universitetinin "BDU könüllüləri" təşkilatı və "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə şəhid övladları olan abituriyentlər üçün infotur keçirilib.***

Əvvəlcə BDU rektoru Elçin Babayev "Zəfər tarixi" lektoriyasında şəhid övladları ilə görüşüb. Rektor Elçin Babayev BDU-nun Azərbaycan elmi, təhsili, ictimai-siyasi həyatında oynadığı mühüm rolu barədə məlumat verib, Universitetin ən böyük məzununun Ümummilli Lider Heydər Əliyev olduğunu bildirib. O, Universitetin əsas missiyasının milli-mənəvi dəyərlərə, dövlətçiliyə bağlı vətəndaş və yüksəkixtisaslı mütəxəssis yetişdirmək olduğunu xatırladıb: "Siz ölkəmizin azadlığı uğrunda gözünü qırpmadan həlak olan, qəhrəmanlıqları ilə tarix yazan şəxsiyyətlərin övladlarısız. Onlara layiq olacağınıza, həyatda, təhsildə uğurlar qazanacağınıza əminik. Hər addımınızda dövlətimiz və xalqımız sizin yanınızdadır".

"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Orucova BDU-nun ölkəmizdə ali təhsilin flaqmanı olduğunu, burada tələbələr üçün keyfiyyətli təhsil və tədqiqat mühiti yaradıldığını, son illər Universitetin beynəlxalq reytinqlərdə sürətlə irəlilədiyini bildirib. O, tədbirin əsas məqsədinin şəhid övladları olan abituriyentlərin ixtisas seçiminə dəstək vermək, onlarla maraqlı və motivasiya dolu bir gün keçirmək olduğunu vurğulayıb: "Bu il 60-a yaxın şəhidimizin övladı orta məktəbdən məzun olub. Hansı universiteti, hansı peşə və ixtisası seçmələrindən asılı olmayaraq, onların hər birinin seçiminin düzgün olacağına inanırıq".

Sonra şəhid övladları Universitetin Heydər Əliyev muzeyi və Heydər Əliyev lektoriyasını ziyarət ediblər. Onlar Ümummilli Liderin zəngin həyat yolu və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponat və məlumatlarla tanış olublar. Qonaqlar BDU-nun Faydalı qazıntılar muzeyi, Təkamül muzeyinə baxış keçiriblər.

Universitetin "Tələbə məkanı"nda abituriyentlər üçün BDU-da tədris prosesi, fakültə və ixtisaslar, elmi tədqiqat mühiti, sosial və akademik dəstək mexanizmləri, tələbə həyatı barədə məlumatlandırıcı infossesiya keçirilib.

Sonda şəhid övladlarına Universitetin ekoloji yönümlü layihələri, burada yaradılmış yaşıl zonalarla bağlı məlumat verilib. Onlar BDU-nun "Eko Məkanı"ı, Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi, tədris binaları, kampusu ilə tanış olublar.

# BDU ilə Özbəkistanın Jurnalistika və Kütləvi Kommunikasiya Universitetinin rektorları arasında görüş

***İyulun 23-də BDU-nun rektoru Elçin Babayev Özbəkistanın Jurnalistika və Kütləvi Kommunikasiya Universitetinin rektoru Şerzodxon Kudratxoca ilə görüşüb.***

Görüşdə iki qardaş ölkənin universitetləri arasında mövcud əlaqələrin inkişaf perspektivləri, xüsusilə jurnalistika və media sahəsində qarşılıqlı tədris və tədqiqat imkanları müzakirə olunub. Əsas diqqət ikili diplom proqramının işə salınması və bu istiqamətdə praktiki addımların müəyyənləşdirilməsinə yönəlib.

Rektorlar universitetlər arasında tələbə və müəllim mübadiləsinin təşkili, birgə layihə və tədbirlərin keçirilməsi, media sahəsində ixtisaslaşmış kadr hazırlığının gücləndirilməsi barədə razılığa gəliblər.

Səmimi və konstruktiv şəraitdə keçən görüş iki universitet arasında təhsil və elmi əməkdaşlığın genişlənməsi baxımından əlamətdar addımdır. Tərəflər yaxın zamanlarda qarşılıqlı səfərlərin davam etdirilməsi və konkret fəaliyyət planının hazırlanması barədə razılığa gəliblər.

# Gürcüstan parlamentinin Təhsil, elm və gənclərlə iş komitəsi sədrinin birinci müavininin rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da

***İyulun 28-də Gürcüstan parlamentinin Təhsil, elm və gənclərlə iş komitəsi sədrinin birinci müavini Giorgi Çakvetadzenin rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da olub.***

Qonaqları salamlayan rektor Elçin Babayev belə görüşlərin Azərbaycan və Gürcüstan arasında mövcud olan əlaqələri möhkəmləndirməklə yanaşı, təhsil və elm sahələrində əməkdaşlıq, akademik mübadilə və birgə tədqiqat təşəbbüsləri üçün yeni imkanlar açdığını qeyd edib. O, BDU ilə Gürcüstanın ali təhsil müəssisələri arasında əməkdaşlığı genişləndirməyin zəruri olduğunu bildirib. Rektor diqqətə çatdırıb ki, BDU Gürcüstanın nüfuzlu elm və ali təhsil müəssisələri ilə dinamik əməkdaşlığa hazırdır. Bu tərəfdaşlıq qarşılıqlı müəllim, tələbə mübadiləsini, birgə layihələrin həyata keçirilməsini, müxtəlif istiqamətlər üzrə ikili diplom proqramlarının imzalanmasını əhatə edə bilər.

Gürcüstan parlamentinin Təhsil, elm və gənclərlə iş komitəsi sədrinin birinci müavini Giorgi Çakvetadze Azərbaycanın ən böyük və qədim universitetində olmaqdan məmnunluğunu ifadə edib, Gürcüstan-Azərbaycan əlaqələrinin sürətlə və yüksək səviyyədə inkişaf etdiyini deyib. O, Azərbaycanla Gürcüstan arasında elm və təhsil sahəsində əməkdaşlığın perspektivləri, müəllim və tələbə mübadiləsi, birgə elmi tədqiqatların aparılmasının xalqlarımızın inkişafına öz töhfəsini verəcəyinə əminliyini bildirib.

Görüşdə BDU ilə Gürcüstanın ali təhsil müəssisələrinin təhsil, elm sahələrində əməkdaşlığının yeni mərhələyə yüksəlməsi istiqamətində müzakirələr aparılıb.

# Bu il BDU-nun SABAH qruplarını 471 məzun bitirir

***İyulun 2-də 2024/2025-ci tədris ilində BDU-nun SABAH qruplarını bakalavriat səviyyəsində 13 qrup, 9 ixtisas ("Biologiya müəllimliyi", "Coğrafiya müəllimliyi", "Fizika müəllimliyi", "Hüquqşünaslıq", "Kimya müəllimliyi", "Psixologiya", "Kompüter elmləri", "Riyaziyyat müəllimliyi", "Tarix müəllimliyi") üzrə 348, magistratura səviyyəsində isə 10 qrup, 8 ixtisaslaşma ("Ehtimal nəzəriyyəsi və riyazi statistika", "Əməliyyatlar tədqiqi və sistemli təhlil", "Jurnalistika", "Kimyəvi kinetika və kataliz", "Kompüter elmləri və texnologiyaları", "Molekulyar biologiya", "Nanohissəciklər fizikası", "Optimallaşdırma və optimal idarəetmə") üzrə 123 məzun bitirir.***



Azərbaycanın 13 ali təhsil müəssisəsindəki SABAH qrupları arasında ən çox ixtisas və tələbə sayı məhz BDU-dadır. Cari tədris ilində BDU-nun SABAH qruplarında bakalavriat səviyyəsi üzrə 913, magistratura səviyyəsi üzrə isə 237 tələbə təhsil alıb.

Ümumilikdə son 9 ildə BDU-nun SABAH qruplarından 2132 tələbə məzun olub.

Qeyd edək ki, SABAH ali təhsildə tədrisin keyfiyyətinin yüksəldilməsi, ali təhsil sistemində yeni və fərqli bir mühitin yaradılması, savadlı, bacarıqlı və hazırlıqlı tələbə yetişdirilməsi, əmək bazarının artan tələblərinə müvafiq olaraq kadr hazırlığının təmin edilməsi məqsədilə 2013/2014-cü tədris ilində yaradılıb.

# Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin 70-dən çox məzunu dünyanın nüfuzlu universitetlərinə qəbul olub

***İyulun 4-də Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin builki məzunları böyük uğura imza atıblar. Belə ki, bu il fakültəni bitirən 600 məzundan 70-dən çoxu dünyanın ən nüfuzlu universitetlərinin magistratura pilləsinə qəbul olub.***

Fakültə məzunları Böyük Britaniya, Almaniya, Niderland, ABŞ, Kanada, İtaliya, Fransa, Macarıstan və digər ölkələrin tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanıblar. Onların qəbul olunduqları ali məktəblər sırasında Kembric Universiteti, London İqtisadiyyat Məktəbi, Paris Politoloji Elmlər İnstitutu, Amsterdam Universiteti, Lund Universiteti, Berlin Humboldt Universiteti, Bolonya Universiteti, MakGill Universiteti, Toronto Universiteti, Leyden Universiteti, Berkli Kaliforniya Universiteti və digər nüfuzlu universitetlər yer alır.

Tələbələrin seçdiyi ixtisaslar iqtisadiyyat, beynəlxalq münasibətlər, qlobal idarəetmə, inkişaf iqtisadiyyatı, enerji və resurs siyasəti, dayanıqlı inkişaf, rəqəmsal iqtisadiyyat, iqtisadi statistika, geosiyasi tədqiqatlar və dünya siyasəti kimi müasir çağırışlara cavab verən sahələri əhatə edir.

Bu nəticə Universitet və fakültədə son illər formalaşan akademik mədəniyyətin, tədris keyfiyyətinin, elmi araşdırma mühitinin və tələbəyönümlü yanaşmanın bariz göstəricisidir.

Hazırda xarici ali məktəblərə qəbul olunan tələbələrə Universitet rəhbərliyi və fakültə tərəfindən məşvərətçi, akademik və təşkilati dəstək göstərilir. Gənc mütəxəssislər gələcəkdə Azərbaycan elminin, iqtisadiyyatının və diplomatiyasının beynəlxalq inteqrasiyasında mühüm rol oynayacaqlar.

# BDU-nun iki məzunu beşinci "Yüksəliş" müsabiqəsinin qalibidir

***BDU-nun iki məzunu beşinci "Yüksəliş" müsabiqəsinin qalibidir.***

Müsabiqədə qalib olan BDU məzunları aşağıdakılardır:

Məmməd Balacanov – BDU-da "Cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası" ixtisası üzrə magistratura təhsili alıb.

Elnur Məmmədli – BDU-da "Kompüter elmləri" ixtisası üzrə bakalavriat təhsili alıb.

Qeyd edək ki, "Yüksəliş" müsabiqəsi Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli Sərəncamına əsasən, intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunub.

Qaliblərin adları kadr ehtiyatı bankına daxil edilir, onlar idarəçi rəhbərlər tərəfindən 1 illik fərdi inkişaf planı (https://yukselish.az/mentors) və hər biri 20 min AZN məbləğində özünüinkişaf mükafatı əldə edirlər.

Məzunlarımızı təbrik edirik!

# BDU-nun 14 təhsil proqramı beynəlxalq akkreditasiya prosesindən keçiriləcək

***BDU ilə Qazaxıstan Respublikasının Təhsildə Keyfiyyətin Təminatı üzrə Müstəqil Agentliyi (IQAA) arasında beynəlxalq proqram akkreditasiyası üzrə əməkdaşlıq müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, BDU-nun magistratura səviyyəsində tədris olunan 14 təhsil proqramı beynəlxalq akkreditasiya prosesindən keçiriləcək.***

Akkreditasiya prosesi Avropa Ali Təhsil Məkanında qəbul olunmuş Avropa Standartları və Təlimatlarına (ESG) uyğun şəkildə həyata keçiriləcək. Qeyd edək ki, IQAA Avropa Keyfiyyət Təminatı Assosiasiyasının (ENQA) tamhüquqlu üzvü olmaqla yanaşı, Avropa Keyfiyyət Təminatı Reyestrində (EQAR) rəsmi qeydiyyata alınıb.

Xatırladaq ki, BDU-nun magistratura səviyyəsindəki 6 ixtisaslaşması ("Qeyri-üzvi kimya", "Fiziki kimya", "Analitik kimya", "Üzvi kimya", "Yüksəkmolekullu birləşmələr kimyası" və "Neft kimyası") IQAA tərəfindən 5 il müddətinə beynəlxalq proqram akkreditasiyasından uğurla keçib və Elm və Təhsil Nazirliyinin Akkreditasiya Şurasının 20 sentyabr 2023-cü il tarixli qərarına əsasən, beynəlxalq proqram akkreditasiyası nəticələri dövlət akkreditasiyası üçün nəzərə alınıb.

# BDU-nun 12 məzunu HTP çərçivəsində Macarıstan və Çin Xalq Respublikasında təhsil alacaq

***İyulun 7-də BDU-nun 12 məzunu 2025/2026-cı tədris ili üzrə Hökumətlərarası Təqaüd Proqramları (HTP) çərçivəsində Macarıstan və Çin Xalq Respublikasında magistratura və doktorantura səviyyələrində təhsil almaq hüququ əldə edib.***

BDU məzunları Macarıstanın Eötvös Lorand Universiteti, Budapeşt Korvinus Universiteti, Ludovika Dövlət İdarəçilik Universiteti, Budapeşt İqtisadiyyat və Biznes Universiteti, Çin xalq Respublikasının Pekin Texnologiya Universiteti, Şanxay Beynəlxalq Tədqiqatlar Universiteti, Pekin Elm və Texnologiya Universiteti, Şansi Universiteti, Çin Siyasi Elmlər və Hüquq Universiteti, Vuhan Universiteti kimi nüfuzlu ali təhsil müəssisələrinə qəbul olunublar.

Onlar təhsillərini beynəlxalq münasibətlər, hüquq, biznesin idarə edilməsi, kompüter elmləri, psixologiya və ətraf mühit elmləri üzrə davam etdirəcəklər.

Bu uğur BDU-nun beynəlxalq təhsil mübadiləsindəki mövqeyinin möhkəmləndiyini və məzunlarının yüksək akademik hazırlığa malik olduqlarını bir daha sübut edir.

# BDU-da "Birincilik" təqaüdü təsis edildi

***2025/2026-cı tədris ilində Bakı Dövlət Universitetinə bakalavriat səviyyəsi üzrə qəbul olunan və müxtəlif ixtisaslar üzrə 550-dən çox bal toplayan abituriyentlər arasından ən yüksək nəticə göstərmiş tələbələrə tədris ilinin sonunadək hər ay 200 manat məbləğində "Birincilik" adlı məqsədli təqaüd veriləcək.***

Bu barədə BDU Elmi Şurası qərar qəbul edib.

Qeyd edək ki, 2025/2026-cı tədris ilində BDU-ya bakalavriat səviyyəsində 75 ixtisas üzrə qəbul həyata keçiriləcək.

# BDU və "Baku Marriott Hotel Boulevard" hotelinin nümayəndələri arasında görüş

***İyulun 17-də BDU-nun Karyera və məzunlarla iş Mərkəzi və "Baku Marriott Hotel Boulevard" hotelinin nümayəndələri arasında görüş keçirilib. Görüşün məqsədi tələbə və məzunların məşğulluq imkanlarının genişləndirilməsi, onların əmək bazarına inteqrasiyasına dəstək göstərilməsi və turizm sahəsində aparıcı işəgötürənlərdən biri olan "Baku Marriott Hotel Boulevard" ilə uzunmüddətli tərəfdaşlığın qurulması olub.***

Karyera və məzunlarla iş Mərkəzinin direktoru Qəşəm Məmmədov Mərkəzin fəaliyyət istiqamətləri, tələbə və məzunlar üçün yaradılan karyera imkanları, işəgötürənlərlə əməkdaşlığa dair strateji planlar haqqında məlumat verib.

Karyera planlaşdırılması şöbəsinin müdiri Günel Qurbanova Mərkəzin həyata keçirdiyi layihələr və inkişaf proqramlarından bəhs edib, belə görüşlərin universitet-sənaye işbirliyini gücləndirdiyini vurğulayıb.

"Baku Marriott Hotel Boulevard" hotelinin insan resursları üzrə direktoru Əzizə Əsgərova tələbələr üçün mövcud təcrübə proqramları, gənc istedadların seçilməsi və işə qəbulu siyasəti, hotel daxilində karyera inkişaf imkanları barədə məlumat verib.

Görüşdə müştəriyönümlü peşələr üçün tələbə və məzunların hazırlıq səviyyəsinin artırılması istiqamətində seminarların, "workshop"ların, motivasiya görüşlərinin, infoturların təşkili təklif edilib.

# BDU-nun rektoru: Milli mətbuatımız şərəfli missiyasını yüksək peşəkarlıqla davam etdirir

***22 iyul Azərbaycan milli mətbuatının yaranmasından 150 il ötür. 1875-ci il iyulun 22-də dövrünün maarifçilik hərəkatının görkəmli nümayəndələrindən olan Həsən bəy Zərdabi tərəfindən ölkəmizdə anadilli ilk mətbu orqanı - "Əkinçi" qəzetinin nəşrə başlaması ilə Azərbaycan milli mətbuatının əsası qoyulub.*** İyirmi beş aylıq fəaliyyəti dövründə 56 buraxılışı işıq üzü görmüş "Əkinçi" qısa müddət ərzində milli mətbuatımızın təməl daşına çevrildi. Az müddətdə həm ziyalılar, həm də sadə insanlar arasında böyük nüfuz qazanmış "Əkinçi"nin milli mətbuatımızın təşəkkül tapmasında, cəmiyyətdə demokratik ideyaların bərqərar olmasında və maarifçiliyin inkişafında əvəzsiz rolu olmuşdur. Xalqımızın yazıçı və şairləri, görkəmli ədiblər və tanınmış ziyalılar, kəsərli söz və iti qələm sahibləri qəzetlə sıx əməkdaşlıq etmiş, bu mətbu orqanın səhifələrində mütəmadi olaraq maraqlı və faydalı yazılarını oxucularla bölüşmüşlər. Lakin əhalinin maariflənməsində maraqlı olmayan, milli şüurun oyanışına qarşı çıxan çar Rusiyası qəzetin ictimai-siyasi proseslərə daha yaxından bələd olmaqla yanaşı, bu proseslərə təsir imkanlarından çəkinərək onun nəşrini dayandırmağa nail olmuşdur. Amma bu addım müxtəlif tənəzzül və intibah dövrləri keçən Azərbaycan mətbuatının inkişafını dayandıra bilmədi.

Azərbaycan xalqının milli oyanış salnaməsinə adı əbədi həkk olunmuş "Əkinçi"dən sonra "Ziya", "Ziyayi-Qafqaziyyə", "Kəşkül", "Həyat", "Füyuzat", "Molla Nəsrəddin" kimi qəzet və jurnallar Zərdabinin ideyalarını davam etdirərək anadilli milli mətbuat tariximizin mühüm səhifəsinə çevrildi.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevin "Azərbaycan milli mətbuatı – 150" sərlövhəli məqaləsində yer alıb. Məqaləni təqdim edirik.

Ötən əsrin sonlarında Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra, bütün sahələrdə olduğu kimi, milli mətbuatın inkişafında da əsaslı dönüş yarandı. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra demokratik inkişafın, vətəndaş cəmiyyəti quruculuğunun dövlət siyasətinin başlıca istiqamətinə çevrildiyi dövrdə söz azadlığını məhdudlaşdıran süni maneələrin aradan qaldırılmasına başlanıldı, medianın fəaliyyətini tənzimləyən mükəmməl qanunvericilik bazasının formalaşdırılması, redaksiyaların maddi-texniki təminatının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirildi, milli mətbuatın hərtərəfli inkişafına münbit şərait yaradıldı. 1998-ci ilin avqustunda Heydər Əliyevin "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" Fərmanı əsasında ölkədə kütləvi informasiya vasitələri üzərində senzuranın ləğv edilməsi ilə




Azərbaycan milli jurnalistikası yeni inkişaf mərhələsinə qədəm qoymuş oldu.

Ulu Öndər Heydər Əliyev Azərbaycan mətbuatının inkişaf tarixini layiqincə dəyərləndirərək demişdir: "Milli mətbuatımızın inkişaf mərhələləri Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda mübarizə tarixinin tərkib hissəsidir. "Əkinçi"dən üzü bəri azadlıq, demokratiya, müstəqillik uğrunda mücadilə dərslərini biz milli mətbuatımızın səhifələrindən öyrənmişik".

Xüsusi olaraq qeyd edilməlidir ki, dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan mətbuatı ilə bağlı ilk Fərman məhz Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanıb. "Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi" haqqında 2000-ci il 27 mart tarixli Fərmana əsasən, ölkəmizdə demokratik mətbuatın yaradılmasının 125 illiyi təntənəli şəkildə qeyd olunub.

Ümumilikdə, Ulu Öndər mətbuatın problemlərinin həlli, o cümlədən milli mətbuatın yubileylərinin geniş qeyd olunması, media orqanlarına birdəfəlik yardımların göstərilməsi, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, həmçinin milli mətbuatın inkişafındakı xidmətlərinə görə jurnalistlərin fəxri adlarla təltif edilməsi ilə bağlı 10-dan çox sərəncam və fərman imzalayıb. Bu tədbirlər ölkə mətbuatına və mətbuat işçilərinə göstərilən dövlət qayğısının tərkib hissəsi, ölkə başçısının milli jurnalistikaya münasibətinin bariz nümunəsidir.

Ulu Öndərin ölkə mətbuatına və mətbuat işçilərinə göstərdiyi yüksək diqqət və qayğı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu davamlı diqqət və siyasi iradə nəticəsində media sahəsində mühüm dəyişikliklər baş verib, mətbuatın müasir tələblərə uyğun şəkildə inkişafı üçün əsaslı zəmin formalaşıb. Müasir medianın formalaşması və inkişafı üçün geniş imkanlar yaranıb. Köklü islahatlar nəticəsində ölkədə söz azadlığının təmin edilməsi, medianın fəaliyyətini tənzimləyən qanunvericilik bazasının möhkəmləndirilməsi, mətbu orqanlarının iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin sərbəst fəaliyyətinin təmin edilməsi, onların sosial problemlərinin həlli istiqamətində ciddi addımlar atılıb.

Zəngin tarixi boyu Azərbaycan mətbuatı özünəməxsus inkişaf yolu keçmiş, ölkəmizdə və dünyada baş verən hadisələrlə bağlı cəmiyyətin məlumatlandırılması, xalqımızın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyət göstərmişdir. İctimai həyatın hər bir sahəsini əhatə edən köklü islahatların həyata keçirildiyi, kommunikasiya vasitələrinin sürətlə inkişaf etdiyi müasir dövrümüzdə biz Azərbaycan mediasında ciddi keyfiyyət dəyişikliklərinin şahidiyik. Zəngin ənənələrə malik Azərbaycan mətbuatı indi özünün yüksəliş mərhələsini yaşayır. Hazırda respublikada 5000-dən artıq qəzet və jurnal nəşr olunur, internet qəzetçilik sürətlə inkişaf edir.

Prezident İlham Əliyevin "Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında" 2020-ci il 30 iyun tarixli Sərəncamı və "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" 2021-ci il 12 yanvar tarixli Fərmanı ölkə mətbuatının inkişafına ciddi təkan verib. Fərmana əsasən, Azərbaycanda medianın inkişafının dəstəklənməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradılıb.

Mətbuat orqanlarına mütəmadi olaraq maliyyə vəsaitinin ayrılması, onların maddi-texniki bazasının möhkəmləndirilməsi, media nümayəndələrinin yaradıcı əməyinin stimullaşdırılması, ölkə rəhbərinin mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair sərəncamları əsasında jurnalistlər üçün yaşayış binalarının inşası və onların müasir və rahat mənzillərlə təmin edilməsi dövlətimizin bu sahəyə diqqət və qayğısının bariz nümunəsidir. Dövlətimizin mətbuat sahəsinə göstərdiyi bu diqqət və qayğı, xüsusilə Vətən müharibəsi zamanı media nümayəndələrinin misilsiz xidmətləri ilə daha önəmli hala gəlib.

Beş il öncə Azərbaycan dövləti ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda 44 günlük Vətən müharibəsində bütün dünyaya ədalətin bərpasını nümayiş etdirdi. Dövlətimizin və xalqımızın tarixinə qızıl hərflərlə əbədi həkk olmuş, Müzəffər Ali Baş Komandanın qətiyyəti, rəşadətli əsgər və zabitlərimizin canı və qanı hesabına qazanılmış Qələbənin əldə edilməsində igid hərbçilərlə yanaşı, media nümayəndələrinin, xüsusilə hərbçi jurnalistlərin xidmətləri danılmazdır. Vətən müharibəsi və xüsusi hərbi əməliyyatların keçirildiyi dövrdə Azərbaycan mediası dövlətimizin başçısı, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin haqq və ədalətin bərpası uğrunda bu qanlı savaşın gedişi ilə bağlı səsləndirdiyi hər bir fikrin, hər bir bəyanatın, işğaldan azad edilmiş ərazilərimizdəki vəziyyət barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynayıb, fədakarlıq və qətiyyət, mərdlik və cəsarət nümayiş etdirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il aprelin 25-də "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb.

Bu gün artıq ərazi bütövlüyünü tam bərpa etmiş Azərbaycanın işğaldan azad olunmuş, genişmiqyaslı quruculuq və bərpa işlərinin vüsət aldığı şəhərlərində, xüsusilə Xankəndidə və Türk dünyasının mədəniyyət paytaxtı Şuşada beynəlxalq tədbirlər keçirilir və bu möhtəşəm tədbirlər çərçivəsində milli mətbuatımız öz şərəfli missiyasını yüksək peşəkarlıqla davam etdirir.

Şuşa Qlobal Media Forumu vasitəsilə Azərbaycan informasiya sahəsində qlobal dialoqu təşviq etmək və ədalətli informasiya siyasətinin formalaşmasına töhfə vermək əzmində olduğunu bir daha nümayiş etdirdi və qlobal informasiya siyasətində öz haqlı və ədalətli mövqeyini dünyaya çatdıra bildi.

Azərbaycan mediasının inkişafında, ilk növbədə, yüksəkixtisaslı və peşəkar kadr hazırlığı böyük əhəmiyyət daşıyır. Bu istiqamətdə BDU xüsusi rol oynayır. Ölkəmizdə jurnalistika təhsilinin əsası ilk olaraq 1928-ci ildə məhz BDU-da qoyulub. Bütün mediada olduğu kimi, bu gün jurnalistika təhsilində də yeni yanaşmalar, medianın yeni meyilləri nəzərə alınır. Yeni təlim texnologiyaları tətbiq olunur, təcrübi biliklərin öyrədilməsinə üstünlük verilir, tədris prosesinə mediada çalışan peşəkarlar cəlb olunur.

Universitetin Jurnalistika fakültəsində həm də ciddi elmi araşdırmalar aparılır. Elmi tədqiqatların əsas istiqamətləri müasir dövr Azərbaycan jurnalistikasının aktual problemlərinin öyrənilməsindən, televiziya və radiojurnalistikanın inkişaf perspektivlərinin müəyyən edilməsindən, Azərbaycanın mətbuat tarixinin araşdırılmasından, beynəlxalq jurnalistikanın əsas istiqamətlərinin tədqiqi və təhlilindən ibarətdir.

BDU-da ali jurnalistika təhsili bakalavr və magistratura səviyyələri üzrə Azərbaycan (əyani və qiyabi), rus (əyani) və ingilis (əyani) dillərində aparılır. Tədris aparan 32 müəllimdən 7-si elmlər doktoru, professor, 18 nəfəri isə fəlsəfə doktoru, dosentdir. Bakalavr səviyyəsində 600-ə qədər, magistratura səviyyəsində 46 tələbə təhsil alır, 7 doktorant, 35 dissertant elmi-tədqiqat işləri üzərində çalışır.

2020-ci ildə BDU-da Jurnalistika fakültəsinin professor-müəllim heyəti və ölkəmizin nüfuzlu jurnalistlərinin iştirakı ilə "Vətən müharibəsi dövründə ölkə və xarici medianın fəaliyyətinin təhlili" layihəsi həyata keçirilib, layihə çərçivəsində "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vətən müharibəsi dövründə xarici kütləvi informasiya vasitələrinə müsahibələri", "Vətən müharibəsi yerli və xarici mediada" və "Vətən müharibəsi dövründə Bakı Dövlət Universitetinin professor-müəllim heyəti və tələbələrinin ölkə mediasında çıxışları" kitabları nəşr edilib.

2025-ci il mayın 14-16-da BDU və Türkiyənin Üsküdar Universitetinin birgə təşkilatçılığı, Medianın İnkişafı Agentliyi, Audiovizual Şura və Azərbaycan Mətbuat Şurasının tərəfdaşlığı ilə Azərbaycan milli mətbuatının 150 illik yubileyinə həsr olunmuş "Rəqəmsal dövrdə media və kommunikasiya fəaliyyəti" mövzusunda beynəlxalq konfrans keçirilib. Konfrans çərçivəsində Türkiyənin müxtəlif ali təhsil müəssisələrindən və media subyektlərindən olan nümayəndələrin ustad dərsləri təşkil edilib, "Milli mətbuat tarixi auditoriyası" açılıb, "Bakı Universiteti" qəzetinin xüsusi nömrəsinin və BDU-nun yeni təsis etdiyi "Media problemləri" jurnalının təqdimat mərasimləri keçirilib.

Son illər BDU-nun Jurnalistika fakültəsində auditoriyaların müasir tələblər səviyyəsində yenilənməsi və onların zəruri avadanlıq, tədris vəsaitləri ilə təchiz olunması ənənəyə çevrilib. Bu sırada fakültədə Mətbuat Şurası, Medianın İnkişafı Agentliyi, "ARB24" televiziyasının xüsusi otaqlarının, "Xalq qəzeti"nin "Debat otağı"nın yaradılması xüsusilə önəmlidir. Bu məkanların hər biri gələcəyin jurnalistləri üçün nəzəri biliklərin təcrübədə tətbiqi baxımından əvəzsiz rol oynayır, tələbələrin dövlətin informasiya siyasəti ilə daha yaxından tanış olmaları, medianın aktual məsələlərinə, informasiya təhlükəsizliyinə dair peşəkar mütəxəssislərin iştirakı ilə canlı müzakirələrin aparılması üçün zəruri şərait yaradır.

*(ardı 7-ci səhifədə)*

*(əvvəli 6-cı səhifədə)*

Milli mətbuatımızın yubileyi ərəfəsində baş tutmuş əlamətdar hadisələrdən biri iyulun 15-də Bakı Kitab Mərkəzində BDU ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) arasında əməkdaşlıq müqaviləsinin imzalanması oldu. Tədbir çərçivəsində BDU və İİTKM-in birgə hazırladıqları “İctimaiyyətlə əlaqələrin əsasları” adlı dərs vəsaitinin təqdimatı keçirildi. Hesab edirik ki, birgə əməyin məhsulu olan və ölkəmiz üçün peşəkar jurnalistlərin hazırlığı işində faydalı ola biləcək bu dərs vəsaiti hər iki təşkilatın Azərbaycan milli mətbuatının 150 illik yubileyinə önəmli töhfəsidir.

Ümummill Lideri Heydər Əliyevin məzunu olduğu və “Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti və milli iftixarı” kimi yüksək dəyərləndirdiyi BDU-da son illərdə aparılan islahatlar və infrastruktur dəyişiklikləri, təhsildə və elmi araşdırmalarda keyfiyyət göstəricilərinin yüksəldilməsi istiqamətində atılan addımlar müxtəlif ixtisaslar, o cümlədən jurnalistika üzrə yüksəkixtisaslı kadr hazırlığında yeni nailiyyətlərin əldə edilməsinə zəmin yaradır. Jurnalistika fakültəsində tədris proqramlarının müasirləşdirilməsi, rəqəmsal media bacarıqlarının tədrisə inteqrasiyası və tələbə təşəbbüslərinin dəstəklənməsi kimi islahatlar isə medianın dəyişən çağırışlarına uyğun peşəkar jurnalistlərin yetişməsində mühüm rol oynayır.

Qədim tarixə və zəngin ənənələrə malik olan, yeni reallığa qədəm qoymuş Azərbaycanda müasir cəmiyyətin aynasına çevrilən milli mətbuatımız bu gün yeni inkişaf mərhələsini yaşayır. Müstəqil dövlətimizin media nümayəndələrini Milli Mətbuat Günü münasibətilə təbrik edir, hər bir qələm sahibinə Azərbaycan mətbuatının tərəqqisi naminə şərəfli və məsuliyyətli fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

***Mənbə: azərtag.az***

# BDU-da “Code8 Hackathon” keçirilib

***İyulun 3-də BDU-da Elm və Təhsil Nazirliyinin dəstəyi və “Code Academy”nin tərəfdaşlığı ilə “Code8 Hackathon” keçirilib. “Code For Future” layihəsi çərçivəsində keçirilən yarışda istedadlı universitet tələbələri və proqramlaşdırma sahəsində fəaliyyət göstərən peşəkarlar iştirak ediblər.***

Tədbirin məqsədi tələbələrin texniki biliklərini real iş mühitində tətbiq etməsi, komanda işi, vaxtın idarə olunması və təqdimat bacarıqları kimi vacib yumşaq bacarıqlarını inkişaf etdirməsidir. Tədbir çərçivəsində 8 komanda 6 layihə üzərində işləyərək, öz ideyalarını peşəkar Münsiflər heyətinə təqdim ediblər.

“Hackathon” iştirakçıları sektorda tanınmış mütəxəssislərdən tövsiyələr almaq, gələcək karyera imkanlarını genişləndirmək və kreativ yanaşmalarını nümayiş etdirmək imkanı qazanıblar. Şirkət nümayəndələri isə yeni istedadları kəşf etmək, gələcəyin potensial proqramçıları ilə birbaşa ünsiyyət qurmaq və sahə üzrə biliklərini paylaşmaq imkanı əldə ediblər.

“Code8 Hackathon” gənclərin texnologiya sahəsində inkişafını dəstəkləmək və onları gələcəyin rəqabətli əmək bazarına hazırlamaq baxımından əhəmiyyətli addım kimi dəyərləndirilir.

# 150 yaşlı Azərbaycan milli mətbuatı

*(əvvəli 1-ci səhifədə)*

***Milli mətbuatımızın yubileylərinin geniş qeyd olunması, KİV-ə müntəzəm yardımlar göstərilməsi, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən tədbirlər bu mühüm sahəyə qayğının tərkib hissəsidir.***




Azərbaycan mediası həm Birinci, həm də İkinci Qarabağ müharibələrində üzərinə düşən vəzifəni layiqincə yerinə yetirərək möhtəşəm Zəfərimizin müjdəçisi oldu. 44 günlük Vətən müharibəsində və müharibədən sonrakı dövrdə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında mətbuatın rolu və jurnalistlərin fəaliyyəti danılmazdır. Onlar cəbhə xəttində həm xəbər istehsalçısı, həm də səfərbərlik proqramı çərçivəsində əməliyyatlarda iştirak ediblər. Məhz mətbuat nümayəndələrinin peşəkarlığı, fədakarlığı sayəsində Azərbaycanın apardığı ədalətli müharibə, eləcə də Ermənistanın hərbi-siyasi rəhbərliyinin xalqımıza qarşı törətdiyi müharibə cinayətləri haqqında dünya ictimaiyyətinə dolğun məlumatlar çatdırıldı. Qarabağ uğrunda döyüşlərdə fərqlənən və müxtəlif medallarla təltif edilənlər arasında torpaqlarımızın azadlığı naminə qələmini silaha dəyişən jurnalistlərimiz də az deyil.

Xüsusilə vurğulamaq lazımdır ki, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında ən böyük missiyanı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev özü reallaşdırdı. Dövlətimizin başçısının Vətən müharibəsi dövründə 30-dan çox beynəlxalq media qurumuna dolğun və faktlara əsaslanan müsahibələri informasiya müharibəsində də Qələbə qazanmağımızda müstəsna rol oynadı.

Azərbaycan həqiqətlərinin təbliği missiyasını hər zaman yorulmadan yerinə yetirən mətbuatımız 44 günlük Vətən müharibəsinin gedişində düşmən təbliğatına qarşı informasiya mübarizəsinə töhfə verdiyi kimi, postmüharibə dövründə də bu işi uğurla davam etdirməkdədir. Azərbaycan mediası Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin səsləndirdiyi bəyanatların, işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri barədə informasiyaların ölkə və dünya ictimaiyyətinə çatdırılmasında fəal rol oynayır.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev milli mətbuatın Azərbaycanın ictimai-siyasi və mədəni həyatındakı yerini, mədəniyyətin, maarifçiliyin inkişafında rolunu, müasir cəmiyyət quruculuğu və ölkəmizin beynəlxalq nüfuzunun daha da yüksəldilməsi sahəsində töhfələrini nəzərə alaraq, “Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında” Sərəncam imzalayıb. Sərəncamda deyilir: “Bu gün mediamız Azərbaycanın tərəqqisinin və müasir cəmiyyət quruculuğu prosesinin fəal iştirakçısı olaraq, beynəlxalq əlaqələrini və qlobal informasiya məkanında təsir imkanlarını genişləndirmiş, rəqabət qabiliyyətini artırmışdır. Lakin dünya nizamının dəyişikliklərə məruz qaldığı, siyasi proseslərin intensivləşdiyi, habelə yeni fəaliyyət prinsiplərinin bərqərar olduğu müasir dövr Azərbaycan mediası qarşısında da yeni vəzifələr müəyyənləşdirir. Qabaqcıl texnologiyaların tətbiqi, sosial media platformalarında fəallığın artırılması, rəqəmsallaşma, süni intellekt, media savadlılığının yüksəldilməsi, dezinformasiya və saxta xəbərlərlə mübarizə, effektiv kommunikasiyanın həyata keçirilməsində yaxından iştirak və s. mediamızın inkişaf perspektivini və qarşıdan gələn dövrdə qlobal informasiya məkanında yerini müəyyənləşdirəcək məsələlərdir. Eyni zamanda, media müasir tendensiyaları nəzərə almaqla Azərbaycanın dövlət maraqlarını həmişə uca tutmalı, ölkəmizin müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu, həyatımızda baş verən pozitiv dəyişikliklər ilə bağlı ictimaiyyətimizin məlumatlandırılması sahəsində daha fəal olmalıdır”. Bu fikirlər Azərbaycan jurnalistlərinin qarşısında duran yol xəritəsidir.

İyulun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xankəndidə “Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi” mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə səsləndirdiyi fikirlər onun ölkə mediasına verdiyi yüksək dəyəri bir daha sübut edir: “Bu gün Azərbaycan mediası dövlət maraqlarını qorumağa qadirdir. Azərbaycana qarşı əsassız ittihamları arqumentlərlə, ciddi təhlillə və faktlar əsasında ifşa etməkdə də böyük uğurlar əldə edib. Bizim mediamız nəinki dövlət maraqlarını müdafiə edir, eyni zamanda, lazım gəldikdə hücuma da keçir. Bu da lazımdır. İdmanda bəzən deyirlər ki, ən yaxşı müdafiə hücumdur. Mən bu tezisə şərh vermək istəmirəm. Amma fakt odur ki, bu gün Azərbaycan mediasını bir çox ölkələrdə müxtəlif səviyyələrdə oxuyurlar, mediada gedən yazıları, məqalələri təhlil edirlər. O məqalələrin Azərbaycanın rəsmi mövqeyinə nə dərəcədə uyğun olub-olmaması ilə bağlı da fərziyyələr irəli sürülür. Bu, deməyə əsas verir ki, mediamız doğrudan böyük inkişaf yolu keçib”.

BDU ölkəmizin jurnalist kadrlar hazırlayan ən böyük ali təhsil müəssisəsi kimi Azərbaycan milli mətbuatının 150 illiyi münasibətilə öz məzunlarını, kütləvi informasiya vasitələri nümayəndələrini təbrik edir. Böyük peşəkarlıq, fədakarlıq tələb edən məsuliyyətli və şərəfli fəaliyyətlərində uğurlar diləyir.

# Tələbələr və şəhid-qazi övladları üçün Yay düşərgəsində təlim: “Gənclər üçün mövcud imkanlar”

***Bakı Dövlət Universiteti, İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Gənclər Forumunun Avrasiya Regional Mərkəzi, "BDU könüllüləri" təşkilatı və "Əmanət" Şəhid və Qazi Övladlarının Fərdi İnkişafına Dəstək Layihəsinin təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" nə həsr olunmuş tələbələr və şəhid-qazi övladları üçün Yay düşərgəsinin iştirakçıları üçün “Gənclər üçün mövcud imkanlar” mövzusunda təlim keçirilib.***



Təlimdə iştirakçılara müxtəlif yerli və beynəlxalq təqaüd proqramları, tələbə mübadilə təşəbbüsləri, gənclər üçün nəzərdə tutulan liderlik və könüllülük proqramları, eləcə də beynəlxalq əməkdaşlıq platformaları haqqında ətraflı məlumat verilib. Gənclərin fərdi təşəbbüslərini reallaşdırmaq imkanları və layihələrin hazırlanması mərhələləri geniş izah olunub. Layihə ideyasının formalaşdırılması, məqsəd və hədəflərin düzgün müəyyənləşdirilməsi, fəaliyyət planının hazırlanması, risklərin qiymətləndirilməsi, büdcənin tərtib olunması və qiymətləndirmə mexanizmləri kimi əsas komponentlər üzərində praktiki nümunələr işlənilib.

# “Azərsun Holdinq” Jurnalistika fakültəsinin 6 tələbəsinə təqaüd ayırıb

***İyulun 9-da “Azərsun Holdinq” Azərbaycan milli mətbuatının 150 illik yubileyi münasibəti ilə Jurnalistika fakültəsinin yaz semestrinin imtahan sessiyasında ən yüksək bal toplayan tələbələrinə təqaüd ayırıb.***

Bu münasibətlə fakültədə təşkil edilən görüşdə BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev milli mətbuatın 150 illik yubileyi ərəfəsində belə bir addımın atılmasının sevindirici hal olduğunu qeyd edib. O bildirib ki, BDU-nun fəaliyyətində universitet-sənaye işbirliyi əsas tendensiyalardan hesab olunur. BDU-da son illərdə bu istiqamətdə müxtəlif qurumlarla ortaq layihələr həyata keçirilib: “Sevindirici haldır ki, Jurnalistika fakültəsində də bu ənənənin əsası qoyuldu. “Azərsun Holdinq” ölkənin ən iri şirkətlərindən biridir. Bu təqaüdlər tələbələr üçün böyük motivasiya olacaq, onların peşəkar mütəxəssis kimi formalaşmasına dəstək verəcək”.



Jurnalistika fakültəsinin dekanı Vüqar Zifəroğlu tələbələr üçün yaradılan bu şəraitə görə Universitetin və “Azərsun Holdinq”in rəhbərliyinə təşəkkür edib, bunun gənc jurnalistlərin yetişməsində əhəmiyyətli rol oynayacağını vurğulayıb: “İnanırıq ki, digər şirkətlər də belə layihələr həyata keçirəcəklər. Gələcəkdə çox maraqlı, gənclərimizin inkişafı üçün səmərəli ola biləcək təqaüd proqramları elan edə biləcəyik”.

“Azərsun Holdinq”in ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Rza Məmmədov isə holdinqin bu il mətbuatla bağlı silsilə layihələr həyat keçirdiyini söyləyib: “Bu layihələr çərçivəsində əsas tərəfdaşlarımızdan biri də BDU-nun Jurnalistika fakültəsidir. Şirkətlər qrupu növbəti tədris ili ərzində ən yaxşı nəticə göstərən 6 tələbəyə dəstək göstərəcək”.

Jurnalistika fakültəsinin Milli mətbuat tarixi kafedrasının müdiri Cahangir Məmmədli və “Azərsun Holdinq”in müşaviri Oruc İbrahimov çıxışlarında tələbələri təbrik edib, tövsiyələrini paylaşıblar.

# BDU-nun SABAH qruplarının tələbələri üçün İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyində infosessiya

***İyulun 11-də BDU-nun SABAH qruplarının “Fizika müəllimliyi” ixtisasının tələbələri və “Nanohissəciklər fizikası” ixtisaslaşmasının magistrantları üçün İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Nüvə tədqiqatları departamentində infosessiya keçirilib.***



İnfosessiya zamanı tələbələr departamentdə aparılan müasir elmi-tədqiqat prosesləri, nüvə və material fizikası sahəsində tədqiqatlarla tanış olub, eksperimental tədqiqat metodikaları və qabaqcıl texnoloji avadanlıqları haqqında məlumat əldə edib, eksperimentlər aparıblar. Tələbələrə radioloji təhlükəsizlik prinsipləri və nüvə elmlərinin tətbiq sahələri barədə də məlumat verilib. Departamentin alimləri tərəfindən keçirilən sessiyada iştirakçılar fundamental və tətbiqi fizikanın sərhədləri mövzusunda müzakirələrdə iştirak ediblər.

Gənc tədqiqatçılar laboratoriya mühitində müşahidə etdikləri eksperimental prosesləri təhlil edib. Səfər çərçivəsində interaktiv diskussiyalar və sual-cavab sessiyaları da təşkil olunub.

# BDU komandası “Beynəlxalq Proqramlaşdırma Düşərgəsi”ndə iştirak edir

***Bakı Dövlət Universitetinin tələbələrdən ibarət “Baku SU” komandası 17–24 iyul 2025-ci il tarixlərində keçirilən və görkəmli alim Ramin Mahmudzadənin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş “Beynəlxalq Proqramlaşdırma Düşərgəsi”ndə iştirak edib.***



İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA), Beynəlxalq Universitetlərarası Proqramlaşdırma Müsabiqəsinin (ICPC) Azərbaycan icması, ADA Universiteti, Azərbaycan Texniki Universitetinin Təhsildə İnformasiya Texnologiyaları və Metodik Dəstək İnstitutu və “TechArena” platformasının birgə təşkilatçılığı ilə keçirilən düşərgə 2025–2026-cı illər üzrə ICPC-in dörddə bir və yarımfinal mərhələlərinə hazırlıq məqsədi daşıyır.

Düşərgədə Azərbaycan, Belarus və Gürcüstandan olan ali təhsil müəssisələrinin komandaları iştirak edir. Ümumilikdə 14 universiteti təmsil edən 16 komanda arasında Bakı Dövlət Universitetinin “Baku SU” komandası da yer alır. Komandanın tərkibinə tələbələr Nihat Qəribli, Emil Hüseynov, Mirağa Əliyev və komanda rəhbəri (kouç) İsmayıl Zeynalov daxildir.

Düşərgənin əsas məqsədi regionun aparıcı universitetlərindən olan istedadlı tələbələrin proqramlaşdırma sahəsində bilik və bacarıqlarının inkişaf etdirilməsi, təcrübə mübadiləsinin təşviq və ICPC müsabiqələrinə sistemli hazırlıq imkanlarının yaradılmasıdır.

BDU komandası bu nüfuzlu düşərgədə fəal iştirakı ilə Universitetin ali texniki təhsil və rəqəmsal inkişaf sahəsində regional və beynəlxalq əməkdaşlıqlara verdiyi əhəmiyyəti bir daha nümayiş etdirir.

# BDU və “Zəfər bağları” MMC-nin əməkdaşları arasında görüş keçirilib

***İyulun 10-da BDU-nun Karyera və məzunlarla iş Mərkəzi və “Agro Food Investments” MMC-nin tərkibində olan “Zəfər bağları” MMC-nin əməkdaşları arasında görüş keçirilib.***

Karyera və məzunlarla iş Mərkəzinin direktoru Qəşəm Məmmədov Mərkəzin əsas fəaliyyət istiqamətləri barədə məlumat verib. Mərkəzin tələbə və məzunların uğurlu karyera qurması istiqamətində karyera xidmətləri göstərdiyini, onların şəxsi və peşəkar bacarıqlarının inkişaf etdirilməsi məqsədilə işəgötürənlərlə müxtəlif layihə və inkişaf proqramları həyata keçirdiyini vurğulayıb. O, bu görüşün tələbə və məzunların əmək bazarına adaptasiyasında əhəmiyyət kəsb edəcəyinə ümid etdiyini bildirib.

Karyera və məzunlarla iş Mərkəzinin Karyera planlaşdırılması şöbəsinin müdiri Günel Qurbanova “Zəfər bağları” MMC ilə əməkdaşlığın qurulması və inkişaf etdirilməsi istiqamətində nəzərdə tutulan fəaliyyətlərə aydınlıq gətirib. Görüşdə Hüquq, Beynəlxalq münasibətlər və iqtisadiyyat, Biologiya, Kimya fakültələrinin tələbələri üçün təcrübə və təqaüd proqramları, startap layihələrinin həyata keçirilməsi ilə bağlı müzakirə aparılıb.

Şirkət əməkdaşları bildiriblər ki, BDU ilə “Zəfər bağları” MMC arasında əməkdaşlıq çərçivəsində Korporativ Sosial Məsuliyyət layihələri, tələbələr üçün könüllülük, təqaüd və praktiki təcrübə proqramları, “Açıq qapı” günləri həyata keçiriləcək. Bu əməkdaşlıq gənc mütəxəssislərin hazırlanması, aqrar elmlər sahəsində tədqiqatların stimullaşdırılması və universitet-sənaye əlaqələrinin möhkəmləndirilməsinə əlverişli şərait yarada bilər.

2024-cü ildə yaradılan "Zəfər bağları" MMC Qarabağ ərazisində yeni bağların salınması və mövcud olan bağların bərpasını həyata keçirir.

# BDU-nun 866 bakalavr və magistri yay semestri dərslərində iştirak edir

***BDU-da Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”na əsasən, yay semestri təşkil olunub.***

Yay semestri 2024/2025-ci tədris ilində bakalavriat və magistratura səviyyələrində təhsil alan tələbə və magistrantların fənlər üzrə akademik borclarının ləğv edilməsi və ya müvəffəqiyyət qazanılan fəndən qiymətin yüksəldilməsinə dair müraciətləri nəzərə alınaraq təşkil edilir.

İyulun 28-dən başlayan yay semestri üzrə dərslərin 5 həftə ərzində keçirilməsi nəzərdə tutulub. Ümumilikdə yay semestri dərslərində 120-dək fənn üzrə 858 bakalavr və 8 magistr iştirak edir.

# BDU əməkdaşı "Vikipediya" üzrə təlimlərdə iştirak edib



***BDU-nun Elmi Kitabxanasının əməkdaşı Şükufə Əliyeva Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin təşəbbüsü ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında (MEK) təşkil olunmuş "Vikipediya" təlimlərində iştirak edib.***

5 may 2025-ci il tarixində başlayan təlimlərdə BDU ilə yanaşı, ölkənin müxtəlif ali təhsil müəssisələrinin – Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Bakı Slavyan Universitetinin kitabxana əməkdaşları da iştirak ediblər.

Təlimləri MEK-in Elektron resurslar şöbəsinin baş mütəxəssisi Xəyalə Məmmədli aparıb. O, ilk gün iştirakçılara "Vikipediya"nın tarixi, mahiyyəti, funksionallığı, ictimai əhəmiyyəti və müasir informasiya mübadiləsindəki rolu barədə ətraflı məlumat verib. Təlimin məqsədi yalnız texniki bilik vermək deyil, həm də iştirakçılarda açıq bilik paylaşımına dair fəal mövqe formalaşdırmaq olub.

Təlim müddətində iştirakçılar "Vikipediya" platformasının iş prinsipi ilə yaxından tanış olub, məqalələrin yaradılması, redaktə edilməsi, vikiləşdirilməsi, istinadların əlavə olunması, istifadəçi səhifələrinin qurulması və şablonlarla işləmək bacarıqları əldə ediblər. Onlar fərdi tapşırıqları yerinə yetirərək, öyrəndiklərini praktikada tətbiq etmək imkanı qazanıblar.

Təlimlər zamanı iştirakçılar tərəfindən 50-dən çox yeni məqalə yaradılıb, mövcud səhifələrdə onlarla redaktələr edilib. Əsas diqqət "Vikipediya" Elektron Ensiklopediyasının Azərbaycan dili bölməsinin zənginləşdirilməsinə yönəlib.

Təlimdə iştirakçılar Vikimedia Fondunun digər layihələri ilə tanış olub. Təlimçi iştirakçılara bu fondun ümumilikdə 12 layihə üzrə fəaliyyəti haqqında məlumat verib. Təcrübə zamanı iştirakçılar Vikianbara da şəkillər yükləyib, bəzi məqalələrə bu platformadan vizual materiallar əlavə ediblər. Bu, təkcə texniki deyil, həm də vizual təqdimat baxımından böyük əhəmiyyət daşıyıb.

İki ay boyunca davam edən təlimin sonunda iştirakçılar sertifikatla təltif olunublar.

# Biologiya fakültəsinin məzunlarından böyük uğur

***Biologiya fakültəsini bu il bitirən 228 məzundan 22-si dünyanın nüfuzlu ali təhsil müəssisələrinə qəbul olub. Bu universitetlərdən bəziləri (London İmperial Kolleci, Mançester Universiteti, Koreya Universiteti, Birmingem Universiteti və s.) "QS World University Rankings 2026"da dünya üzrə ilk 500-lüyə düşür.***

Tələbələrin bir çoxu Almaniya, Böyük Britaniya, İtaliya, Litva, İsrail, Polşa, Koreya, Rusiya və Türkiyənin aparıcı universitetlərinə tam və ya qismən təqaüd qazanıblar. Onların bir qismi isə dövlət proqramları və beynəlxalq təqaüd layihələrinin qalibidir.

Tələbələrin seçdikləri əsas ixtisas və istiqamətlər arasında molekulyar biotexnologiya və molekulyar biologiya, genetika, tibb və farmasevtik biotexnologiya, ictimai səhiyyə və sosial epidemiologiya, hüceyrənin molekulyar biologiyası, beynəlxalq münasibətlər və təhlükəsizlik, eləcə də biotexniki və tibbi informasiya texnologiyaları kimi müasir və prioritet sahələr yer alır.

Fakültə məzunlarının bu uğuru Universitetdə formalaşmış güclü elmi mühit və beynəlxalq əməkdaşlığın nəticəsidir. Xaricdə təhsil alan tələbələrə Universitet tərəfindən hərtərəfli dəstək göstərilir. Bu nailiyyətlər BDU tələbələrinin rəqabətqabiliyyətli biliyə və yüksək potensiala sahib olduqlarını təsdiqləyir.

# "Huawei" şirkəti BDU-da rəqəmsal təhsil və idarəetmə sistemləri ilə bağlı təqdimat edib

***İyulun 17-də Bakı Dövlət Universiteti ilə "Huawei" şirkəti arasındakı əməkdaşlıq çərçivəsində Universitetdə "Smart Campus" və "Smart Classroom" rəqəmsal həlləri üzrə təqdimat və müzakirə sessiyası keçirilib.***

Tədbir "Huawei" İKT Akademiyasının təşəbbüsü çərçivəsində əməkdaşlıq imkanlarının araşdırılması məqsədi daşıyıb.

Təqdimatda BDU-nun İnformasiya Təminatı Mərkəzi, Tədrisin Təşkili və İdarəolunması Mərkəzi və Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin əməkdaşları iştirak ediblər.

"Huawei" şirkətinin texniki komandası tərəfindən Universitet mühitinə inteqrasiya edilə biləcək müasir rəqəmsal təhsil və idarəetmə sistemləri barədə geniş informasiya təqdim olunub.

Görüş çərçivəsində Universitetin rəqəmsal transformasiya strategiyasına uyğun olaraq, "Huawei" ilə birgə həyata keçirilə biləcək təlim və inkişaf proqramları, texnologiyaların tətbiqi və texniki əməkdaşlıq sahəsində mümkün tərəfdaşlıq istiqamətləri müzakirə olunub.

BDU rəqəmsal təhsilin inkişafı və texnoloji tərəfdaşlıqların genişləndirilməsi istiqamətində fəaliyyətini davam etdirir.



# BDU-da harmonik analizin aktual problemləri tədqiq edilir

***BDU-nun Riyazi analiz kafedrasının dosenti Mehriban Ömərovanın müəllifi olduğu "Parabolik total Morri fəzalarında parabolik kəsr maksimal operatorun kommutatoru" ("Commutators of parabolic fractional maximal operators on parabolic total morrey spaces") adlı məqalə "Web of Science" bazasında Q1 kvartilli jurnallar siyahısına daxil olan "Mathematical Methods in the Applied Sciences" jurnalında dərc edilib.***

Məqalədə parabolik total Morri fəzalarında parabolik kəsr maksimal kommutator operatoru və parabolik kəsr maksimal operatorun kommutatorunun məhdudluğu üçün meyarlar alınıb. Bu nəticələrin tətbiqi olaraq parabolik total Morri fəzalarında parabolik kəsr maksimal kommutator operatoru və parabolik kəsr maksimal operatorun kommutatorunun məhdud olması üçün zəruri və kafi şərtlər tapılıb.

# BDU əməkdaşlarının yeni dərs vəsaiti nəşr olunub




***İnformasiya və sənəd menecmenti fakültəsinin Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrasının dosenti Rəşad Qardaşov və həmin kafedranın saathesabı qaydada müəllimi Aysel Həsənovanın həmmüəllifi olduqları dərs vəsaiti nəşr edilib.***

BDU Elmi Şurasının qərarı ilə nəşr edilməsi tövsiyə olunan "Kitabxana kataloqları" adlı kitabın ixtisas redaktoru dosent Sevda Xələfova, rəyçiləri professor Xəlil İsmayılov, dosent Solmaz Sadıqova, tarix üzrə fəlsəfə doktoru Oruc Quliyev və texnika üzrə fəlsəfə doktoru Elçin Məmmədovdur.

Dərs vəsaitində kitabxana kataloqlarının növləri və onların tərtibi metodikası, kataloqlaşdırma işində biblioqrafik təsvirin yeri, kataloqlaşdırmaya dair dünya standartları kimi məsələlər öz əksini tapır.

Dərs vəsaiti "Kitabxanaçılıq və informasiya fəaliyyəti" ixtisası üzrə təhsil tələbələr, gənc tədqiqatçılar və sahə mütəxəssisləri üçün nəzərdə tutulub.

# BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin 7 şagirdi qızıl və gümüş nişana layiq görülüb

***Elm və təhsil naziri Emin Əmrullayevin müvafiq əmri ilə Bakı Dövlət Universitetinin nəzdində "Gənc istedadlar" liseyinin 7 şagirdi qızıl və gümüş nişana layiq görülüb.***

Liseyin şagirdləri Ərhun Abdullazadə, Bəxtiyar Əmiraslanov, Ağahüseyn Hüseynov, İlyas Muxtarov, Nihad Həşimov, Nəzrin Cəlilova qızıl, Fuad Hüseynov isə gümüş nişanla təltif olunublar.

Qızıl və gümüş nişanla təltif olunan təhsilalanların adları məktəbin "Şərəf kitabı"na yazılacaq.

Şagirdlərimizi təbrik edir, təhsil həyatlarında daha böyük uğurlar arzulayırıq!

# BDU-nun məzunu Cənubi Koreyanın nüfuzlu universitetində magistratura təhsili alacaq

*Biologiya fakültəsinin "Biotexnologiya" ixtisası üzrə ilk məzunlarından olan Şəhla Həmidova Cənubi Koreyanın nüfuzlu ali təhsil müəssisələrindən biri sayılan Koreya Universitetində magistratura təhsili almaq hüququ qazanıb. O, "İctimai səhiyyə (Cəmiyyət sağlamlığı və sosial epidemiologiya)" ixtisası üzrə təhsilini davam etdirəcək.*



Şəhla Həmidova Koreya Respublikasının beynəlxalq tam təqaüd proqramı olan "Global Korea Scholarship" (GKS) proqramının qalibidir. Bu proqram üzrə müraciət edən yüzdən çox tələbə arasından yalnız beş nəfər seçilib. GKS proqramı çərçivəsində dörd semestrlik təhsilhaqqı, hər ay təxminən 1260 manat məbləğində aylıq təqaüd, sağlamlıq sığortası, gediş-gəliş xərcləri və viza dəstəyi daxil olmaqla bütün xərclər tam şəkildə maliyyələşdirilir.

Koreya Universiteti "QS World University Rankings 2026"da dünya üzrə 61-ci yerdə qərarlaşıb.

Şəhla Həmidova bakalavr təhsilini 92.32 bal ortalaması ilə başa vurub. İngilis və Koreya dillərini C1 səviyyəsində bilir.

# BDU-nun 5 tələbəsi İƏT-in Gənclər Forumunda iştirak edib

*BDU-nun 5 tələbəsi - Mert Üstün, Aslan Bekirhan (Beynəlxalq münasibətlət və iqtisadiyyat fakültəsi), Eylül Tanşi Karaca (Sosial elmlər və psixologiya fakültəsi), Burcu Çaylak (Tarix fakültəsi), həmçinin bu il BDU-dan yüksək təhsil göstəricisi ilə məzun olan Fidan Kərimli İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) Həftəsi çərçivəsində keçirilən İƏT-in Gənclər Forumunda iştirak ediblər.*



Gənclər Forumu çərçivəsində "Yüksəksəviyyəli perspektivlər: Regional inkişafda gənclərin rolu" mövzusunda plenar panel, "Ölkə müdaxilələri: Gənclərin milli strategiyaların davamlı inkişafa töhfəsinin qiymətləndirilməsi üzrə Milli Perspektivlər" mövzusunda panel sessiya keçirilib.

Panel müzakirələrin sonunda isə gənclər tərəfindən İşçi qruplar yaradılıb və üç istiqamətdə - iqtisadi və ticari əməkdaşlıq, davamlılıq və texnologiya, insan inkişafı və insanlar arasında dialoq məsələləri ətrafında müzakirələr aparılıb.

İşçi qrupların iclasında çıxış edən BDU-nun tələbəsi Mert Üstün İƏT ölkələrində "EKO könüllülük" proqramı təşəbbüsü ilə çıxış edib, bununla gənclərin yeni təcrübələr əldə edəcəyini bildirib.

Qeyd edək ki, Forumda təşkilata üzv olan 7 ölkədən 100-dək gənc, dövlət orqanlarının nümayəndələri, İƏT rəsmiləri və ekspertlər iştirak ediblər.

# BDU-nun tələbə və əməkdaşları KOBİA-nın VII qrant müsabiqəsinin qalibidirlər

*BDU-nun tələbə və əməkdaşları Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi ilə bağlı elan etdiyi VII qrant müsabiqəsinin qalibi olublar.*

BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin (TİİMM) Hüceyrə kulturası və genom redaktəsi elmi-tədqiqat laboratoriyasının (ETL) müdiri Qumru Hüseynovanın "Aqrar təsərrüfatla məşğul olan kiçik və orta biznes subyektlərinin torpaqsız əkin sisteminə keçidinə dəstək" layihəsi qalib elan olunaraq, 19851 manat məbləğində qrantla dəyərləndirilib.

Layihənin məqsədi hidroponik əkin sistemini tətbiq edən sahibkarların təsərrüfatlarında iqtisadi səmərəliliyi artırmaqdır.

BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin əməkdaşı, Ekologiya və torpaqşünaslıq fakültəsinin IV kurs tələbəsi Nicat Həsənovun "EcoBin – dayanıqlı torpaq üçün ağıllı kompostlama" layihəsi də müsabiqənin qalibi olub. Layihənin məqsədi kompost gübrələrin istifadəsi ilə torpaq sağlamlığını yaxşılaşdırmaq və kimyəvi gübrələrə olan ehtiyacı əhəmiyyətli dərəcədə azaltmaqdır. Layihə 18751 manat məbləğində maliyyə dəstəyi ilə həyata keçiriləcək.

BDU-nun ICESCO-nun Biotibbi materiallar kafedrasının müdiri Ülviyyə Həsənova, Sənaye kimyası ETL-in müdiri Ələkbər Hüseynzadə və Biomühəndislik ETL-in elmi işçisi Nurlan Əmrahov tərəfindən təqdim olunan "Asan quraşdırıla bilən, sadə konfiqurasiyalı nanohepofilterlərin dizaynı və prototipinin hazırlanması" layihəsi müsabiqədə 17223 manat məbləğində maliyyə dəstəyi qazanıb.

Layihənin əsas məqsədi karbon qazını (CO) tutmaq qabiliyyətinə və bakterisid xassələrə malik olan ikili nanohepofiltrlərin hazırlanması və onların prototiplərinin dizaynıdır. Sözügedən filtr sistemləri həm ekoloji, həm də biotibbi sahələrdə tətbiq oluna biləcək müasir texnologiyalar sırasındadır.

# BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin V siniflərinə qəbul imtahanı keçirilib

*İyulun 2-də BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin V siniflərinə qəbul imtahanı keçirilib.*

Liseyə qəbul olmaq üçün 2551 nəfər müraciət edib.

İmtahan prosesi qaydalara uyğun olaraq təşkil edilib. Şagirdlərin öz bilik və bacarıqlarını göstərə bilmələri üçün bütün şərait yaradılıb.

"Gənc istedadlar" liseyi ölkənin ən yaxşı liseyləri sırasındadır. Liseyin şagirdləri hər il beynəlxalq və ölkə əhəmiyyətli müsabiqə və olimpiadalarda önəmli yerlər qazanırlar.

# BDU-nun Quba Təlim-Tədris və İstirahət Mərkəzində Yay tələbə düşərgəsi təşkil olunub

*İyulun 7-də Bakı Dövlət Universitetinin Quba Təlim-Tədris və İstirahət Mərkəzində (TTİM) Yay tələbə düşərgəsi təşkil olunub.*

Düşərgənin məqsədi tələbələrin sosial fəallığının artırılması, birgə fəaliyyət mühitinin formalaşdırılması və BDU-nun tələbə təşkilatları arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi olub.

Düşərgədə tələbələr istirahət edib, müxtəlif oyunlar oynayıb, kommunikasiya qurmaq və səmərəli vaxt keçirmək fürsəti əldə ediblər.

Düşərgənin sonunda BDU rektoru Elçin Babayev Universitetin ictimai həyatında fəallığı ilə seçilən tələbələri təltif edib, tələbə təşkilatlarının təşəbbüskarlığını və nümunəvi fəaliyyətini yüksək qiymətləndirərək, onlara təşəkkürünü bildirib.

# BDU-nun SABAH qruplarının 4 məzunu üçüncü "Maarifçi" tələbə-məzun təcrübə proqramının iştirakçısıdır

*BDU-nun SABAH qruplarının "Kimya müəllimliyi", "Hüquqşünaslıq", "Fizika müəllimliyi" ixtisasları üzrə builki məzunları Cavidan Hacıəliyev, Mirana Ağayeva, Rüqəyya Xıdırova, İlqarə Mirzəyeva üçüncü "Maarifçi" tələbə-məzun təcrübə proqramının iştirakçısı olmaq haqqını qazanıblar.*

Proqram çərçivəsində iştirakçılar Elm və Təhsil Nazirliyi, eləcə də tabe qurumlarının müxtəlif struktur bölmələrində təcrübə keçəcəklər. Proqramın məqsədi tələbə və məzunlara təcrübə imkanı yaratmaq, onların bilik və bacarıqlarını artırmaq, nəzəri biliklərini real iş mühitində tətbiq etmək və gənclərə peşəkar vərdişlər qazandırmaqdır.

Məzunlarımıza uğurlar arzulayırıq!

# BDU-nun iki məzunu beşinci "Yüksəliş" müsabiqəsinin qalibidir

*Bakı Dövlət Universitetinin iki məzunu beşinci "Yüksəliş" müsabiqəsinin qalibidir.*

Müsabiqədə qalib olan BDU məzunları aşağıdakılardır:

Məmməd Balacanov – BDU-da "Cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası" ixtisası üzrə magistratura təhsili alıb.

Elnur Məmmədli – BDU-da "Kompüter elmləri" ixtisası üzrə bakalavriat təhsili alıb.

Qeyd edək ki, "Yüksəliş" müsabiqəsi Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli Sərəncamına əsasən, intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunub.

Qaliblərin adları kadr ehtiyatı bankına daxil edilir, onlar idarəçi rəhbərlər tərəfindən 1 illik fərdi inkişaf planı (https://yukselish.az/mentors) və hər biri 20 min AZN məbləğində özünüinkişaf mükafatı əldə edirlər.

Məzunlarımızı təbrik edirik!

# BDU-nun həmtəşkilatçılığı ilə Qubada tələbələr və şəhid-qazi övladları üçün Yay düşərgəsinin açılışı



***İyulun 26-da BDU, İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Gənclər Forumunun Avrasiya Regional Mərkəzi, "BDU könüllüləri" təşkilatı və "Əmanət" Şəhid və Qazi Övladlarının Fərdi İnkişafına Dəstək Layihəsinin təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" nə həsr olunmuş tələbələr və şəhid-qazi övladları üçün Yay düşərgəsinin açılışı olub.***

Düşərgə iştirakçıları əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib və önünə gül dəstələri qoyublar.

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov düşərgəni açıq elan edib və Universitetin ictimai fəaliyyətində "BDU könüllüləri" təşkilatının fəal rolunu vurğulayıb. O, Universitetdə həyata keçirilən vətənpərvərlik yönümlü layihələrin gənclərin milli-mənəvi dəyərlər ruhunda formalaşmasına, sosial məsuliyyətlərinin artırılmasına mühüm töhfə verdiyini qeyd edib. Daha sonra düşərgənin proqramı haqqında iştirakçılara məlumat verib.

İƏT Gənclər Forumu Avrasiya Regional Mərkəzinin baş direktorunun müavini Ramin Həbibzadə düşərgənin təşkilində əməyi keçən bütün qurumlara və şəxslərə təşəkkürünü bildirib və düşərgə müddətində tələbə və şəhid-qazi övladları üçün yaradılan şəraitdən bəhs edib.

"Əmanət" Şəhid və Qazi Övladlarının Fərdi İnkişafına Dəstək Layihəsinin rəhbəri Sərxan Bağırlı isə çıxışında bu təşəbbüsün gənclərin və uşaqların inkişafına xidmət etdiyini qeyd edib. O vurğulayıb ki, bu, layihə çərçivəsində keçirilən V Yay düşərgəsidir.

Qeyd edək ki, Qubada BDU-nun Tədris-Təcrübə və İstirahət Mərkəzində 26-29 iyul tarixlərində təşkil olunan düşərgə çərçivəsində iştirakçılar üçün təlimlər, məlumatlandırıcı sessiyalar, mədəni tədbirlər və asudə vaxtın təşkili üçün əyləncəli oyunlar planlaşdırılıb.

# BDU-nun tədqiqatçıları "Texnologiyaların transferi" proqramının qalibidir

***Fizika fakültəsinin təqdim etdiyi layihə Elm və Təhsil Nazirliyinin Yüksək Texnologiyalar Parkının təşəbbüsü, Təhsilin İnkişafı Fondu və SABAH.HUB İnnovasiya Mərkəzinin tərəfdaşlığı ilə keçirilən "Texnologiyaların transferi" proqramının qalibi olub.***

Sözügedən layihə proqrama təqdim edilən 76 layihə arasından uğur qazanan 5 layihədən biridir. Layihə fiber optik rabitə texnologiyalarında istifadə üçün yüksək tezlikli fotodetektorların hazırlanmasına yönəlib. Layihənin müəllifləri Fizika fakültəsinin Yarımkeçiricilər fizikası kafedrasının professoru Əli Hüseynov, həmin kafedranın müəllimi Fidan Əhmədova və doktorantı Lamiyə Balayevadır.

Layihənin əsas məqsədi müasir fiber optik rabitəli informasiya texnologiyalarında istifadə olunan ifrat yüksək tezlikli, sadə quruluşlu və yüksək effektivlikli fotodetektorların hazırlanmasından ibarətdir.

Bu tədqiqatın nəticələri yalnız elmi yenilik deyil, həm də praktiki tətbiq və patentləşdirmə potensialı baxımından böyük əhəmiyyət daşıyır. Layihə müddətində yeni yarımkeçirici materiallar əsasında hazırlanmış fotorezistorların kommersiyalaşdırılması və müasir optoelektronika sahəsində geniş tətbiqi planlaşdırılır.

# Qubada Yay düşərgəsində astronomiya haqqında sərgi və kosmik müşahidə sessiyası təşkil olunub



***İyulun 28-də BDU, İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Gənclər Forumunun Avrasiya Regional Mərkəzi, "BDU könüllüləri" təşkilatı və "Əmanət" Şəhid və Qazi Övladlarının Fərdi İnkişafına Dəstək Layihəsinin təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" nə həsr olunmuş tələbələr və şəhid-qazi övladları üçün Yay düşərgəsinin iştirakçıları üçün astronomiya haqqında sərgi təşkil olunub.***

Sərgi zamanı iştirakçılara astronomiya elminin əsas istiqamətləri, kainatın quruluşu, göy cisimlərinin hərəkət trayektoriyaları, planetlərarası dinamika və bu hərəkətlər zamanı yaranan zaman fərqləri barədə ətraflı məlumat təqdim edilib.

Bundan başqa, astronomiya və kosmos mövzusunda çəkilmiş tanınmış elmi-fantastik filmlər, onların süjet xəttində əks olunan elmi elementlər və bu elementlərin reallıqla əlaqəsi də iştirakçıların diqqətinə çatdırılıb. Sərgi interaktiv xarakter daşıyıb və iştirakçılara müzakirələrdə fəal iştirak etmək, suallar vermək və mövzu ətrafında fikir bildirmək imkanı yaradılıb.

Axşam saatlarında keçirilən kosmik müşahidə sessiyası zamanı isə iştirakçılar teleskop vasitəsilə Ayın səthini, bir sıra planetləri və digər göy cisimlərini müşahidə ediblər. Müşahidə prosesi təlimatçıların müşayiəti ilə aparılıb və iştirakçılara gördükləri obyektlər haqqında elmi izahlar təqdim olunub.

# "Konstitusiya və Suverenlik İli" çərçivəsində BDU-nun 2 tələbəsinə Ombudsmanın xüsusi təqaüdü veriləcək

***İyulun 11-də "Konstitusiya və Suverenlik İli" çərçivəsində Bakı Dövlət Universitetinin (BDU) tələbələri üçün İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) xüsusi təqaüdü təsis edilib.***

Təqaüdün təsis edilməsi Ombusdman Səbinə Əliyevanın müraciəti əsasında reallaşıb və BDU Elmi Şurası bununla bağlı qərar qəbul edib.

BDU və Ombudsman Aparatı arasında əməkdaşlıq bir sıra mühüm istiqamətləri əhatə edir. BDU-nun Hüquq fakültəsində bakalavriat və magistratura səviyyələrində təhsil alan gənclərin Ombudsman Aparatında istehsalat və elmi-tədqiqat təcrübəsi keçmələrinə şərait yaradılır. Eyni zamanda, elmi dərəcə və zəngin təcrübəyə malik Ombudsman Aparatı əməkdaşlarının BDU-da elmi-pedaqoji fəaliyyətlə məşğul olmalarına imkan verilir. Bu əməkdaşlığın davamı kimi "Konstitusiya və Suverenlik İli" çərçivəsində cari tədris ilində yüksək akademik göstəricilərlə fərqlənmiş "Hüquqşünaslıq" və "Beynəlxalq münasibətlər" ixtisasları üzrə təhsil alan iki tələbəyə (hər ixtisas üzrə bir nəfər olmaqla) Ombudsman tərəfindən xüsusi təqaüdün ayrılması nəzərdə tutulur.

Bu təşəbbüs tələbə və magistrlərin insan hüquqları sahəsində ixtisaslaşmasına, bu istiqamətdə elmi araşdırmaların aparılmasına daha da təkan verəcək.

# BDU tələbələri "Kiber Yay Məktəbi 2025"də iştirak edirlər

***BDU tələbələri Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) "Bilgəh" istirahət mərkəzində 21-26 iyul tarixlərində Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının təşkilatçılığı ilə keçirilən "Kiber Yay Məktəbi 2025"də iştirak ediblər. Tədbirdə BDU-nu müəllim-mentor qismində Natiq Quliyev, Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin tələbələri Rəsul Rəsulzadə, Almaz İsrafilova və Nübar Məhərrəmova təmsil edib.***

Yay məktəbi informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində bilik və bacarıqların artırılmasına yönələn, beynəlxalq təcrübə mübadiləsini təşviq edən unikal bir platformadır. Builki tədbirdə Azərbaycanla yanaşı, Türkiyə, Pakistan, Səudiyyə Ərəbistanı və Qətərdən olan tələbələr də iştirak ediblər.

Proqram çərçivəsində tələbələr kibertəhlükəsizlik üzrə praktiki təlimlərə, "Red Team" və "Blue Team" formatında laborator məşğələlərə, müxtəlif ekspertlərlə "meet-up" sessiyalarına, o cümlədən "CrowdStrike", "Cisco" kimi beynəlxalq vendorların təqdimatlarına qatılıblar.

BDU tələbələrinin bu tədbirdə iştirakı onların nəzəri biliklərini real ssenarilər üzərində tətbiq etməsinə, yeni texnologiyalarla tanış olmasına, yerli və beynəlxalq şəbəkələşməni gücləndirmələrinə imkan verir.

# BDU-nun 6 tələbəsi Azərbaycan Kibertəhlükəsizlik Mərkəzindən məzun olub

***İyulun 30-da Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) İsrailin "Technion" Texnologiya İnstitutu ilə birgə təsis etdiyi Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin sayca beşinci "Məzun Günü" keçirilib. Bu tədris dalğası üzrə 100 yeni kibertəhlükəsizlik mütəxəssisi hazırlanıb. Onlardan 6-sı BDU tələbəsidir.***

Tələbələr tədris müddətində beynəlxalq mütəxəssislər tərəfindən müdafiə ("Blue team"), hücum ("Red team") və "Purple team" qruplarında müvafiq istiqamətlər üzrə təlim keçərək, kibertəhlükəsizlik sahəsində ən qabaqcıl strategiya, texnologiya və yeniliklər haqqında praktiki biliklərə yiyələniblər.

BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin "İnformasiya təhlükəsizliyi" və SABAH qruplarının "Kompüter elmləri" ixtisasları üzrə tələbələri Rəhman Mürsəlov, Humay Hacıyeva, Arif Qafarov, Səid Bayramov hücum, Elnur Fərzalıyev və Şahanə Qurbanova isə müdafiə qrupları üzrə məzun olublar.

Ümumilikdə indiyədək Azərbaycan Kibertəhlükəsizlik Mərkəzindən 380 nəfər məzun olub.



# BDU-nun doktorantları olan indoneziyalı cütlük: "Bizi Universitetin beynəlxalq elmi nüfuzu cəlb etdi"

***BDU müxtəlif ölkələrdən gələn xarici tələbə və tədqiqatçılar üçün cəlbedici ali təhsil məkanıdır. İndoneziya vətəndaşları olan Abdul Varis və Reza Aprianti hazırda BDU-nun Sosial elmlər və psixologiya fakültəsində "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" çərçivəsində doktorantura təhsili alırlar. Övladları ilə birgə Azərbaycana gələn cütlük günlük yaşamları, Universitetdəki təhsil mühiti, gələcək planları ilə bağlı təəssüratlarını bizimlə bölüşüblər:***

***- BDU-da təhsil almağa necə qərar verdiniz?***

- Abdul Varis:

BDU-nu seçməyimizin əsas səbəbi Universitetin beynəlxalq elmi nüfuzudur. Xüsusilə QS reytinqində 688-ci yeri tutması, zəngin kitabxana fonduna və elmi resurslara sahib olması, eləcə də "Scopus" bazasında indekslənən jurnallarda dərc olunan tədqiqatların intensivliyi bizim üçün önəmli göstəricilər idi. BDU-nun akademik mühiti, müasir tədqiqat imkanları və peşəkar müəllim heyəti burada elmi fəaliyyətimizi inkişaf etdirmək üçün geniş şərait yaradır.

-Reza Aprianti:

"Sosial kommunikasiya" ixtisası üzrə doktorantura təhsili alıram. Elmi maraq dairəmə kütləvi kommunikasiya, fəlakət kommunikasiyası və semiotika daxildir. İndoneziyada ali təhsil müəssisəsində müəllim, laboratoriya müdiri, proqram koordinatoru, elmi jurnal redaktoru kimi fəaliyyət göstərmişəm. Bir sıra beynəlxalq konfranslarda məruzələrlə çıxış edib, nüfuzlu jurnallarda məqalələr dərc etdirmişəm. BDU-nun elmi potensialı, beynəlxalq əməkdaşlıq imkanları və Azərbaycanla İndoneziya arasında olan mədəni yaxınlıq bu Universiteti seçməyimizdə mühüm rol oynadı.





***- Azərbaycanda özünüzü necə hiss edirsiz?***

- Reza Aprianti:

Azərbaycana ilk gəlişimizdə bizi insanların səmimiyyəti və mehribanlığı heyran etdi. Bakı çox təhlükəsiz və yaşamaq üçün əlverişli bir şəhərdir. Hər kəs bizə istiqanlı yanaşdı, heç bir çətinlik yaşamadıq.

-Abdul Varis:

Biz tropik iqlimə malik bir ölkədən gəlmişik. Burada isə dörd fəsil yaşanır, qış aylarına uyğunlaşmaq əvvəlcə bir qədər çətin oldu, amma zamanla öyrəşdik. Azərbaycanın zəngin təbiəti bizi heyran etdi. İlk dəfə qarı burada gördük. Çox əyləncəli zaman keçirdik. Hətta övladlarımızla qar adam da düzəltdik.

***- Mətbəxlərimiz çox fərqlidir. Necə uyğunlaşdınız?***

- Abdul Varis:

İndoneziyada biz demək olar ki, hər gün düyü ilə qidalanırıq. Azərbaycanda isə çörək əsas yer tutur. Bu, bizim üçün yeni və maraqlı bir təcrübə oldu.

-Reza Aprianti:

Azərbaycan mətbəxi çox zəngindir. Ən çox sevdiyimiz yemək dolmadır. Bu yemək həm fərqli, həm də bizə tanış dadları özündə birləşdirir. Buradakı süfrə mədəniyyəti də diqqətimizi çəkdi. Bizdə acılı qidalar çox məşhurdur. Ona görə də tərəvəzləri özüm qurudub qış üçün hazırlıq görürəm.

***- Övladlarınızın təhsilini necə təşkil edirsiz?***

- Abdul Varis:

Üç övladımız var, onlardan ikisi İndoneziyadakı məktəblərində təhsillərini onlayn şəkildə davam etdirirlər. Başlanğıcda çətinliklər olsa da, artıq bu sistemə uyğunlaşmışıq. Burada ailə həyatı üçün təhlükəsiz və stabil mühit mövcuddur.

-Reza Aprianti:

Azərbaycan ailə ilə yaşamaq üçün olduqca münasib ölkədir. İnsanlar anlayışlı və mehribandır. Uşaqlar da buradakı şəraitə tez uyğunlaşıblar və özlərini rahat hiss edirlər.

***- BDU-da elmi fəaliyyət üçün imkanlar sizi qane edirmi?***

- Reza Aprianti:

BDU-da təhsil keyfiyyəti bizi tam qane edir. Professor-müəllim heyəti tələbələrə fərdi yanaşır, dərslər interaktiv və məzmunlu keçirilir. Kitabxana və elmi bazalar müasir tələblərə cavab verir.

-Abdul Varis:

BDU bizə yalnız nəzəri bilik deyil, həm də elmi tədqiqat aparmaq üçün geniş imkanlar təqdim edir. Bu Universitet həm akademik, həm də sosial baxımdan bizim üçün ideal mühit yaradıb.

***- Azərbaycanda akademik fəaliyyətinizi davam etdirməyi planlaşdırırsınızmı?***

- Abdul Varis:

Təhsilimi başa vurduqdan sonra Azərbaycanda qalıb elmi fəaliyyətimi davam etdirmək istəyərdim. Hələlik konkret qərar verməmişik, amma Azərbaycan artıq bizim üçün ikinci evə çevrilib.

-Reza Aprianti:

Gələcək planlarımızda Azərbaycanda və ya İndoneziyada elmi fəaliyyətimizi davam etdirmək yer alır. Hər iki ölkə ilə elmi əlaqələri möhkəmləndirmək istəyirik.

***- BDU-da təhsil almaq istəyən xarici tələbələrə tövsiyəniz nələrdir?***

- Reza Aprianti:

Azərbaycan çox qonaqpərvər ölkədir. BDU isə beynəlxalq səviyyədə tanınan, keyfiyyətli təhsil verən nüfuzlu bir universitetdir. Xarici tələbələr çəkinmədən müraciət edə bilərlər.

-Abdul Varis:

Əgər məqsədiniz elmi inkişaf və beynəlxalq təcrübədirsə, Bakı Dövlət Universiteti sizin üçün doğru seçimdir. Burada həm akademik, həm də insani baxımdan dəyərli təcrübələr qazanmaq mümkündür.

***Hazırladı: Nərminə Əsədova***

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Qulu Məhərrəmli, Xatirə Hüseynova, Samir Mirzəyev, Günel Orucəliyeva

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:** 31.07.2025

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08